Günəş Şərqdən doğur!

❒ № 28 (5309), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 13 fevral 2021-ci il (şənbə)





## Koronavirusa yoluxma sayı yenə artdı

Son sutkada 191 nəfər yoluxub, 3 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 191 yeni yoluxma faktı qeydə alınıb, 226 nəfər müalicə olunaraq sağalıb.

(Səh.8)

## Karvan ünvanındadır

Rusiya sülhməramlılarının müşayiəti ilə inşaat materialları Şuşaya çatdırılıb



Rusiya sülhməramlı qüvvələri tərəfindən Azərbaycanın avtomobil texnikası karvanının təhlükəsizliyini təmin edilib.

(Səh.8)

## Günün içindən...



### Prezidentin sərəncamı tezliklə müsbət nəticəsini verəcək

Nəqliyyat sahəsində həqiqətən çox pərakəndəlik və sistemsizlik mövcuddur

(səh.2)

### Şuşa qalası bərpa edilir



Bütövlükdə işə 22 mütəxəssis cəlb olunub

(səh.4)

# Qiymət artımının qarşısı alınmalıdır





## Ölkədəki sürətli bahalaşma millət vəkillərini də dilə gətirdi

(səh.3)

## “Biz məskunlaşmaya Xankəndidən başlamalıyıq"

“Kimin harda, hansı ünvanda yaşadığı bilinir”

(səh.8)





## Müharibənin ilk günü şəhidliyə qovuşdu

“O gün son dəfə səsini eşitdik”

(səh.9)



## Şəhidin son sözləri...

“Oğlumu qucaqlayıb, öpüb, bağrıma basa bilmədim”

(səh.9)

- Prezident Azərbaycanın iki ölkədəki səfirini geri çağırdı (səh.2)
- “Qızıl amnistiya" gözlənilir
  Rəşad Məcid: “İnanıram ki, “qızıl amnistiya” təşəbbüsünün olması ölkədəki milli birlik və “Dəmir yumruq” ab-havasını daha da gücləndirəcək” (səh.7)
- Direktor: "Azərbaycanda hələlik COVID-19-un yeni ştammı aşkarlanmayıb" (səh.2)
- 2020-ci ildə 138 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib (səh.4)

# Prezidentin sərəncamı tezliklə müsbət nəticəsini verəcək



## Nəqliyyat sahəsində həqiqətən çox pərakəndəlik və sistemsizlik mövcuddur

Prezident İlham Əliyevin Sərəncamına əsasən, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti (AZAL), "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti və Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilib.

Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb. İqtisadiyyat Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görəcəklər. Qeyd olunan nəqliyyat sektorları ilə bağlı mütəmadi şikayətlərlə rastlaşırıq. Görülən tədbirlərə və atılan addımlara rəğmən, bu sahələrdə mövcud problemlər aradan qalxmır. Ancaq hesab edilir ki, adıçəkilən qurumların İnvestisiya Holdinqinin nəzarətində olması və idarəetmənin vahid mərkəzə həvaləsi müsbət nəticə verəcək.

Dövlət başçısının qərarını **”Şərq”ə dəyərləndirən ”Altay” Sosial Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı bunun çox təqdirələyiq addım olduğunu deyib. Ekspertin sözlərinə görə, nəqliyyat sahəsində həqiqətən çox pərakəndəlik və sistemsizlik var:** ”Bu sahənin idarəetməsi, investisiyalaşdırılması, optimallaşdırılması üçün vahid mərkəzdən koordinasiya olunması vacibdir. Başqa sahələrdə olduğu kimi nəqliyyatda da vahid idarəetmə olmalıdır. Həm ölkədaxili, həm şəhərdaxili, həm də beynəlxalq daşımalarda vahid, sistemli və optimal idarəetmə vacibdir. Hazırda bu sahədə problemlər çoxdur, avtobus nəqliyyatında, marştutların təşkilində qarışıqlıq var. Dəmir yol xəttində rentabellik aşağıdır, həmçinin yeyintilər var. Hava nəqliyyatında da monopoliya ortadadır. AZAL astronomik qiymətlər tətbiq edir. Bütün bu məsələlər mütləq tənzimlənməlidir. Yalnız metropoliten normal işləyirdi, o da pandemiya ilə bağlı fəaliyyətini dayandırdı. Ümumiyyətlə, ölkə üzrə nəqliyyatın işi sistemləşdirilməlidir. Xüsusən, Bakı şəhərində sərnişindaşıma yenidən qurulmalıdır. Bu dəyişikliyin tezliklə müsbət nəticə verəcəyinə şübhə etmirəm”.

**İsmayıl Qocayev**

## Prezident Azərbaycanın iki ölkədəki səfirini geri çağırdı



**Murad Nizami oğlu Nəcəfbəyli Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.**

Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Prezidentin digər sərəncamı ilə Rasim Şəmsəddin oğlu Rzayev Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

## İqtisadi Şuranın fəaliyyət istiqamətləri açıqlanıb

**Azərbaycan Respublikasının İqtisadi Şurasının fəaliyyət istiqamətləri məlum olub.**

Prezident İlham Əliyevin dünən imzaladığı fərmanla təsdiqlənən ”Azərbaycan Respublikasının İqtisadi Şurası haqqında Əsasnamə”yə əsasən, Şuranın fəaliyyət istiqamətləri aşağıdakılardır:

- ölkədə sosial-iqtisadi inkişafın ümumi strategiyasının formalaşdırılmasına dair təkliflər hazırlamaq;
- makroiqtisadi siyasət, makroiqtisadi və maliyyə sabitliyi, ortamüddətli xərclər çərçivəsinə dair tövsiyələr hazırlamaq;
- iqtisadiyyatda struktur və institusional islahatlar proqramlarının hazırlanmasına dair təkliflər vermək;
- iqtisadi sahədə normativ hüquqi aktların layihələrinin sosial-iqtisadi inkişaf strategiyası baxımından ekspertizasını keçirmək.

## Şərurun Dəmirçi kəndi Sədərək rayonunun ərazisinə verilir

**“Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında” qanun layihəsi Milli Məclisdə müzakirəyə çıxarılacaq.**

Trend-in məlumatına görə, layihəyə əsasən Şərur rayonun inzibati ərazi bölgüsündə olan Dəmirçi kənd inzibati ərazi dairəsindəki Dəmirçi kəndi Sədərək rayonunun inzibati ərazi bölgüsünə daxil edilir.

## Direktor: "Azərbaycanda hələlik COVID-19-un yeni ştammı aşkarlanmayıb"




**“Türkiyə də daxil olmaqla digər ölkələrdə COVID-19-un mutasiyaya uğramış ştammları görünməkdədir”.** Bunu APA-ya V. Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru Adil Allahverdiyev deyib.

O bildirib ki, Türkiyədə Cənubi Afrika, Böyük Britaniya ştammı və hələ ki, adı bəlli olmayan 3-cü ştamm mövcuddur: ”Azərbaycanda hələ ki, yeni ştamma yoluxma halı qeydə alınmayıb. Buna baxmayaraq, TƏBİB tərəfindən bəzi xəstələrdən izolyasiya edilmiş nümunələr götürülərək yoxlanılıb və həmin analizlərdə yeni ştamm aşkarlanmayıb. Təbii ki, yeni ştamm hər an ölkəmizə daxil ola bilər, bu, sürpriz deyil”.

Həkimin sözlərinə görə, Azərbaycanda Milli Hematologiya və Transfuziologiya Mərkəzində mutasiyaya uğramış virusun analizləri aparılır: ”Bununla bağlı bizim kifayət qədər təchizatımız var. Aylardır TƏBİB tərəfindən bunlar təşkil olunub. Bu, genom analizi ilə müəyyənləşdirilir”.

# Xüsusi nümayəndəlik institutu hələlik azad edilmiş ərazilərdə yaradılır

Parlamentin dünənki iclasında Prezidentin xüsusi nümayəndələri ilə əlaqədar qanuna da dəyişiklik edilib. "Dövlət qulluğu haqqında" qanunda inzibati və yardımçı vəzifələrin təsnifatı qaydasına dəyişiklik edilərək bu bölməyə yeni vəzifələr əlavə olunub.

**Əli Hüseynli: “Əgər özünü doğruldarsa, ola bilsin ki, gələcəkdə Azərbaycanın digər ərazilərində də mümkün olsun”**



Bundan sonra Prezidentin xüsusi nümayəndələrinin, onların müavinlərinin vəzifələri inzibati və yardımçı vəzifələr hesab ediləcək. Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib. Müzakirələr zamanı maraqlı təkliflər də səsləndirilib.

**“İcra hakimiyyəti institutu xüsusi nümayəndəliklə əvəzlənsin”**

**Deputat Fazil Mustafa nisbətən gözdən düşmüş icra hakimiyyəti institutunu bütün bölgələrdə prezidentin xüsusi nümayəndəliyi ilə əvəz etməyi təklif edib.** Parlament üzvü bildirib ki, xüsusi nümayəndəlik institutu dedikdə bir nümayəndədən və onun aparatından söhbət getməməlidir: ”Toqquşan səlahiyyətlər məsələsi var. Həmin yerlərdə müvafiq icra hakimiyyəti orqanları ləğv olunmalıdır. İkincisi, bu bölgələrdə ”Smart şəhər”, ”Smart kənd” layihələrindən əvvəl ”Smart insan” layihəsini həyata keçirməliyik. Həmin ərazilərə xarizmatik insanları təyin etməliyik. Ölkədə kadr bankının yaranmasına ehtiyac var. Qarabağa könüllü insanları göndərməliyik. Şıxlar kəndindən 150 ailə Qarabağın bir kəndində yerləşməyə hazır olduğunu bəyan etdi. Biz istiqaməti bu cür qurmalıyıq. Polisin, sərhəd qoşunlarımızın əməkdaşları ən ağır, çətin şərtlərdə fəaliyyət göstərirlər. Xüsusi nümayəndəliyin də işini elə qurmalıyıq ki, orada yerlərdə olan qurumlarla anlaşmazlıq yaratmasın”.

**“Gələcəkdə digər ərazilərdə də xüsusi nümayəndəlik institutu işləyə bilər”**

**Birinci vitse-spiker Əli Hüseynli isə deyib ki, xüsusi nümayəndəliyin əməkdaşları Prezident Administrasiyasının əməkdaşlarıdır:** ”Bu status onların dövlət qulluqçusu olması statusu ilə eynilik təşkil edir. Buna görə də ”Dövlət qulluğu haqqında” qanuna bu dəyişiklik təklif olunur. İnstitut hələ ki, sadəcə işğaldan azad edilmiş yerlərdə yaradılır. Əgər özünü doğruldarsa, ola bilsin ki, gələcəkdə Azərbaycanın digər ərazilərində də xüsusi nümayəndəlik institutu işləyə bilər”.

*Əli Hüseynli həmkarı Sabir Rüstəmxanlının ”xüsusi nümayəndəlik institutu ilə icra nümayəndələri arasında tənzimləmə necə olacaq” sualını da cavabsız qoymayıb. Vitse-spiker bildirib ki, yeni institut sadəcə işğaldan azad edilmiş ərazilərdə yaradılır:* ”Xüsusi nümayəndələr ərazi ilə bağlı fəaliyyət göstərir. Əhali ilə bağlı fəaliyyət isə yerli icra orqanlarının səlahiyyətindədir. ”Xüsusi nümayəndələr haqqında Əsasnamə” ilə ”Yerli icra orqanları haqqında Əsasnamə” ciddi şəkildə araşdırılıb. Yeni yaradılan idarəetmə üsulu özünü doğrultsa və effektiv olsa, digər ərazilərdə də tətbiq olunacaq. Amma hələlik hər hansı vəzifənin üstüstə düşməsi mümkün deyil”.

**İsmayıl**



# Qiymət artımının qarşısı alınmalıdır

## Ölkədəki sürətli bahalaşma millət vəkillərini də dilə gətirdi

**Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. Gündəliyə daxil olan 15 məsələnin müzakirələrindən sonra bir sıra qanun layihələri ikinci oxunuşda qəbul olunub. İclas zamanı çıxış edən deputatlar cari məsələləri də müzakirə edərək bəzi problemləri gündəmə gətiriblər.**

**"Bu hələ son deyil, digər xərclər də qalxacaq"**

**Millət vəkilləri qiymət artımları ilə bağlı ictimaiyyət arasındakı narazılığı da dilə gətiriblər. Millət vəkili Əli Məsimli dövləti qiymət artımına qarşı tədbir görməyə çağırıb:** "Milli Məclisdə ölkədə koronavirusla bağlı vəziyyətə dair dinləmə keçirilməsi çox yerindədir. Bu böyük tədbirin praktiki əhəmiyyətini artırmaq üçün qaldırılan məsələlər həllini tapmalıdır. Pulsuz testlərin istifadə dairəsinin genişləndirilməsi, pullu testlərin qiymətlərinin 2-3 dəfə endirilməsi həll olunmalıdır. İkinci olaraq, pensiyaların artması müsbət hadisədir. Ancaq bununla paralel qiymətlər də artır. Bunun qarşısı alınmalıdır. Dövlət strukturu olan "Azərsu" da qiymətləri iki dəfə qaldırıb. Bu, hələ son deyil. Digər xərclər də qalxacaq. Bu, aşağı təbəqə insanların həyatını daha da çətinləşdirəcək. Bu təşkilatların təsərrüfatsızlığının əvəzini Azərbaycan xalqı ödəməməlidir. Bunlarla bağlı tədbirlər görülməlidir".

**"Operativ Qərargahın bəzi qərarlarına düzəliş edilməlidir"**

Deputat Fazil Mustafa da bildirib ki, Operativ Qərargahın bəzi qərarlarına düzəliş edilməlidir: "Sahibkara istənilən səviyyədə yardım göstərmək mümkün deyil. Ölkədə tikinti məhsullarının qiyməti son 1 ildə 30-40 faiz qalxıb. İdman yerlərini bağlayıblar. Burada hansı yoluxma təhlükəsi var?! Yüzlərlə, minlərlə insanların vəziyyəti ağırdır. Yaxud paltar, ayaqqabı satılan yerləri bağlayırlar-açırlar. Halbuki, ora gün ərzində 10-20 nəfər ancaq girib-çıxır. Bir çox sahələri açmaq lazımdır. İnsanları bu vəziyyətdə qoymaq olmaz. Həmin yerlərdə çalışan insanlar işləmir".

**"Qaz sayğacları ilə bağlı şikayətlər həll olunmalıdır"**

**Millət vəkili Azay Quliyev deyib ki, qaz sayğacları ilə bağlı yaranan problem haqqında çoxlu şikayətlər daxil olur.** Deputat bildirib ki, "Azəriqaz" QSC-nin rəhbərliyi bununla bağlı açıqlama versə də, problem olduğu kimi qalır: "Sayğaclar dəyişdiriləndən sonra qaz sərfiyatı çox olur. Təklif edirəm ki, biz bunun həllini tapaq. "Azəriqaz"ın rəhbər

### "Talançılıq, özbaşınalıq, özündənrazılıq azalmır"

şəxslərinin təmsil olunduğu bir işçi qrupu yaradıla bilər. Şikayət edən vətəndaşlar da bu işçi qrupda təmsil olunar. Yaxşı olar ki, bu kimi dövlət təşkilatlarında ictimai şuralar da yaradılsın. Çünki şikayətlər çoxdur. Sosial şəbəkələrdə də "Azəriqaz"la bağlı şikayətlər yayılır. Bu məsələ öz həllini tapmalıdır".

**"Qarabağ müharibəsi əlilləri bu rüsumlardan azad deyil"**

**Millət vəkili Musa Quliyev bildirib ki, şəhid ailələrinin və qazilərin sosial təminatının yaxşılaşdırılması Prezidentin diqqət mərkəzindədir.** Onun sözlərinə görə, "Dövlət rüsumu haqqında" qanunda şəhid ailələri və qazi ailələrinə güzəştlər nəzərdə tutulsa da, Qarabağ müharibəsi əlilləri bu rüsumlardan azad deyil: "Bu, uyğunsuzluq yaradır. Qanunvericiliyə bununla bağlı dəyişiklik edilsin. Əlaqədar hökumət orqanları ilə bu məsələni araşdıraq və bu uyğunsuzluğu aradan qaldıraq".

**"Narkotikə görə həbs olunan İran vətəndaşları cəzasını burda çəksin"**

**Parlament üzvü Aqil Abbas vurğulayıb ki, hərdən deputatların yolu həbsxanaya düşür, orada müəyyən görüş keçirilir:** "Bu zaman şahidi oluruq ki, cəza çəkənlər arasında İrandan narkotik keçirən vətəndaşlar az deyil. Həbsxana rəisi deyir ki, cəza çəkən İran vətəndaşlarının əksəriyyəti bir müddət əvvəl ölkəsinə qaytarılanlardır. Burada bu qədər iş verilir və sonra ölkəsinə qaytarılır ki, cəzasının qalan hissəsini orada çəksin. Üstündən 6 ay keçəndən sonra həmin adam yenidən ölkəmizə narkotika keçirir". Deputat təklif edib ki, narkotikə görə ikinci dəfə həbs olunanlar İrana qaytarılmasın: "Cəzalarını elə burda çəksinlər".

**"Köhnələr və yenilər bölgüsünü ortaya atanların məqsədi süni qarşıdurma yaratmaqdır"**

**Milli Məclisin üzvü Zahid Oruc deyib ki, Prezidentin bəzi məmurları tənqid etməsi cəmiyyətdə böyük əks-səda doğurub.** Deputat bildirib ki, bununla belə, bəzilərinin prezidentin fikirlərini təhrif edərək bütün məmurlara qarşı nifrət yaratmaq istəməsi doğru deyil: "3-5 nazir dövlət demək deyil. Artıq Qarabağ məsələsi həll olunduğu üçün bu kimi məsələlərə əl atıblar. İndi informasiya məkanımızda tüğyan edən köhnələr və yenilər kimi bölgüləri ortaya atanların məqsədi süni qarşıdurmalara səbəb olmaqdır. Dövlət başçısının tənqidi siqnaldır. Amma bu, ilk dəfə deyil".

**"Məcburi köçkünlər öz ərazilərinə gedənədək imtiyazları qalacaq"**

**Millət vəkili Musa Quliyev vurğulayıb ki, məcburi köçkünlər öz ərazilərinə gedənədək onların məcburi köçkün statusu götürülməyəcək:** "Bütün imtiyazlar olduğu kimi qalacaq. Heç kim bu kimi fikirləri yaymağa çalışmasın. Onların övladlarının da məcburi köçkün statusu götürülməyəcək. Təhsil haqqını dövlət qarşılayacaq".

**"Bu xalq niyə xoşbəxt deyil?"**

**Millət vəkili Razi Nurullayev deyib ki, Azərbaycanda idarəetmənin ciddi və əsaslı təkmilləşdirilməsinə ehtiyac var:** "Prezidentin çıxışlarından görürük ki, o, hazırkı idarəetmədən və alınan nəticələrdən çox narazıdır. Aparılan islahatlar, yeni kadr dəyişiklikləri, şəffaflığın təmin edilməsi üçün qəbul edilən qərarlar müsbət hallar yaratsa da, ümumilikdə vəziyyət dəyişməz qalır. Prezidentin də narahatlığı bununla bağlıdır. Talançılıq, özbaşınalıq, özündənrazılıq azalmır. Xalq dayanmadan qapımızı döyür. Hesab edirik ki, ciddi məsləhətləşmələrə, ictimai dinləmələrə, ekspert rəylərinə və xarici təcrübəni öyrənməyə ehtiyac var. Təəssüf edirəm ki, hələ bu gün də Azərbaycanın qeyri-rəsmi "quberniyalara" bölünməsi halı mövcuddur. Bu kiçik padşahlıq sistemini kim və niyə yaradıb? Əgər o 10-15 nəfər ölkənin xoşbəxt gələcəyini bu idarəetmədə görürsə, bu xalq niyə xoşbəxt deyil? Hələ də bacarıqlara, keyfiyyətə, potensiala əsaslanmadan ölkəboyu effektsiz kadrların irəli çəkilməsi davam edir. Bu, bizi uçuruma aparır. Gecikmədən, gözləmədən siyasi idarəetmə mexanizmlərini tamamən dəyişdirmək lazımdır".

**İsmayıl Qocayev**

# Millət vəkili təklif verdi

## Gəncə aeroportuna Nizami Gəncəvinin adı verilsin



### Fazil Mustafa isə Nəsib bəy Yusifbəylinin adını daha məqsədəuyğun sayır

**Milli Məclisdə Gəncə aeroportuna dahi şairimiz Nizami Gəncəvinin adının verilməsi təklif olunub.**

Bu təkliflə parlamentdə Gəncəni təmsil edən deputat Naqif Həmzəyev çıxış edib. Deputat Moskva-Bakı reysi ilə yanaşı, Gəncə-Moskva, Gəncə-İstanbul reyslərinin də açılmasını istəyib. **Millət vəkili Musa Quliyev də həmkarının təklifini dəstəkləyib:** "Gəncə aeroportuna Nizami Gəncəvinin adının verilməsi çox mühüm hadisə olar. Ölkənin tanınması, gələn turistlərin daha çox məlumat alması baxımından bu çox yaxşı addım olar". Deputat Fazil Mustafa isə məsələyə fərqli yanaşdığını deyib: "Biz bölgələrimizin adının tanınması ilə bağlı fərqli strategiyalar üzərində işləməliyik. Nizami Gəncəvi kifayət qədər dünyada tanınır. Nizami adına Gəncədə kifayət qədər yer adları var. Biz burada tanınmayanların dünyada tanınmasına şərait yaratmalıyıq. Məsələn, Nəsib bəy Yusifbəyli".

**İsmayıl**

# Bələdiyyələrin fəaliyyətinə dair illik məruzə MM-ə daxil olub

**Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi Milli Məclisə daxil olub.**

Məruzə Milli Məclisin Regional məsələlər komitəsinin fevralın 16-da keçiriləcək iclasının gündəliyinə daxil edilib.

# Məktəblərdə sorğu keçiriləcək



**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən bu ilin fevral-mart aylarında Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində orta məktəblərdə sağlamlığın qorunması ilə bağlı məlumatlılığın artırılması məqsədilə sorğu keçiriləcək.**

Səhiyyə Nazirliyindən verilən məlumata görə, şagirdlər və məktəb kollektivi arasında keçirilən sorğu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ekspertləri tərəfindən tərtib olunan xüsusi anket vasitəsilə aparılacaq. Sorğu məktəb mühitini sağlamlaşdırmaq, şagirdlər və məktəb kollektivi arasında sağlam həyat tərzini təbliğ və təşviq etmək məqsədi daşıyır.

Ölkə üzrə 9 iqtisadi rayonu əhatə etməklə, Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilən 25 məktəbdə aparılacaq sorğu ÜST tərəfindən dəstəklənən "Sağlamlığı təşviq edən məktəblər" (School Health Education) layihəsi çərçivəsində həyata keçiriləcək. Bu sırada yer alan təhsil müəssisələri arasında yeganə inklüziv məktəb olan Bakı şəhəri 202 saylı tam orta məktəbdən başlayaraq sorğuya artıq start verilib, şagirdlərin və kollektivin sorğuda fəal iştirakı müşahidə edilib.

# Göyçə gölünün sərhədlərinə çatırıq



## Əziz Əlibəyli: "Ermənistanın 40 kəndi və Qeqarkunik rayonunun ərazisi sərhəd bölgəmizə çevrilir"

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli feysbuk hesabında mühüm bir məqamı qeyd edib.** O bildirib ki, demarkasiya nəticəsində Ermənistanın 40 kəndi və Qeqarkunik rayonu Azərbaycan əsgərinin nəzarəti altına düşdü.

**Məsələ ilə bağlı "Şərq"ə daha ətraflı danışan Ə.Əlibəyli bildirib ki, 10 noyabr üçtərəfli bəyanatından sonra sərhədlərin dəqiqləşdirilməsi prosesi baş verdi:** "Bu, onunla əlaqədar idi ki, Kəlbəcər və Laçının qaytarılması, ondan əvvəl Cənub rayonlarının işğaldan azad edilməsi Ermənistanla sərhədin tamamlanmasını başa çatdırdı.

Ondan sonrakı proses müddətində Sovet dönəmində mövcud olmuş şərti sərhədlərin müəyyən edilməsi prosesinə start verildi. Bu zaman "GPS" sistemindən belə istifadə etdilər.

Qeqarkunik vilayəti tam olaraq Göyçə gölünün sahillərini əhatə edən bir vilayətdir. Onun böyük bir hissəsi Gədəbəy və Daşkəsən, müəyyən hissəsi Tovuz rayonuna tərəf, bir hissəsi isə Kəlbəcər istiqamətində, oradan da üzü aşağı Qubadlıya qədərki istiqamətləri əhatə edir. Beləliklə, Ermənistanın 40 kəndi və Qeqarkunik rayonunun ərazisi sərhəd bölgəmizə çevrilir.

Faktiki olaraq sərhəd bölgəsinə çevrildikləri üçün də, istər-istəməz Azərbaycan əsgərlərinin nəzarətinə düşmüş sayılır. Qeqarkunik vilayətindən danışanda, anlaşılan olsun deyə mütləq tarixi adlarımıza müraciət etməliyik. Qeqarkunik adlanan bölgənin mərkəzi Göyçənin digər sahilidir, ona Kəvər elləri deyirlər".

*Kərki kəndi və Qazaxın 7 rayonunun qaytarılması məsələsinə gəlincə, ekspert vurğulayıb ki, bunun üçün sərhədlərin demarkasiyası gözlənilirdi:* "Sərhədlərin müəyyən edilməsi artıq başa çatdı. Lakin növbəti mərhələni gözləməliyik.

Bu təkcə Qazaxın kəndləri ilə bağlı deyil, həm də hazırda Dağlıq Qarabağda cəmləşən 2 mindən artıq erməni terrorçusunun taleyinin müəyyən edilməsidir.

Rusiyalı sülhməramlıların "çətiri" altına sığınan təxribatçılarla bağlı problem Zəngəzurdan keçən dəhliz məsələsinin qısa müddətdə həllini tapması ilə aradan qalxacaq. Bu məsələnin həllini tapmasına heç bir qüvvə mane ola bilməz.

Çünki Azərbaycan, Türkiyə və Böyük Britaniyanın əsas qırmızı xətti Zəngəzurdan keçən dəhlizdən ibarətdir. Azərbaycan ciddi şəkildə irəliləməkdədir. Ola bilsin ki, yaxın günlərdə Kərki və Qazaxın 7 rayonunun qaytarılması ilə əlaqədar masaya otursunlar".

**Yeganə Bayramova**

## 2020-ci ildə 138 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib

**Ötən il ərzində İnzibati Xətalar Məcəlləsinin 549-cu maddəsinə əsasən, bələdiyyələrin 172 vəzifəli şəxsi barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib.**

APA-nın məlumatına görə, bu, Milli Məclisə daxil olan "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi"ndə əksini tapıb.

Həmin protokollar üzrə 138 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib, 6 inzibati xəta protokoluna xitam verilib, 28 protokola isə baxılmaqdadır.

## Kılıçdaroğluna da vaksin vuruldu



**Türkiyənin müxalif Cümhuriyyət Xalq Partiyasının (CHP) lideri, müxalif siyasətçi Kemal Kılıçdaroğlu da koronavirusa qarşı vaksinasiya prosesindən keçib.** Türkiyə KİV-i xəbər verir ki, Kılıçdaroğlu barədə özü sosial şəbəkədə məlumat verib. Siyasətçi həyat yoldaşı ilə birgə vaksin olunub.

"Bizim də sıramız gəldi və həyat yoldaşım Selvi xanımla ailə həkimimizdə COVID-19-a qarşı vaksin olunduq. Hamının güvənli şəkildə vaksin olunmasını və pandemiyanın sona çatmasını diləyirəm", - deyə Kılıçdaroğlu qeyd edib.



## "Hərbi qulluq müddətinin artırılması gündəmdə deyil"

### Aydın Mirzəzadə aydınlıq gətirdi

**"Azərbaycanda hərbi qulluq müddətinin artırılması məsələsi gündəmdə deyil və müzakirə edilmir". Bunu Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə Sputnik Azərbaycan-a açıqlamasında deyib.**

Deputat bildirib ki, hazırda orta təhsilli şəxslərin 1 il 6 ay, ali təhsilli şəxslərin isə 1 il hərbi xidmət etməsi çox optimal variant sayılır: "Bu gün ordu sıralarında qulluq etmək hər bir azərbaycanlı gənc üçün şərəf məsələsidir. Ümumiyyətlə, Azərbaycanda ordudan yayınma halları, demək olar ki, yoxdur. Hər hansı formada bu məsələlər barəsində müzakirə aparılmır. İndiki dövrdə mövcud hərbi qulluq müddətini optimal hesab edirəm".

Ermənistanda hərbi qulluq müddətinin azaldılmasının müzakirə edilməsi məsələsinə də münasibət bildirən millət vəkili deyib ki, Ermənistan qonşusu Azərbaycanın torpaqlarını işğal etməklə və büdcəsinin böyük hissəsini hərbi sahəyə yönəltməklə çox ağır duruma düşüb:

"Ermənistanın Azərbaycan və Türkiyə ilə sərhədlərinin bağlı olması, dənizə çıxışının olmaması, eyin zamanda aqressiv siyasəti onun iqtisadiyyatını çox bərpad vəziyyətə salıb. Görünür, Ermənistanda az da olsa, anlamağa başlayırlar ki, vəziyyətdən çıxış yolu hərbi xərclərin azaldılmasıdır. Ermənistanın Azərbaycan torpaqlarını yenidən işğal etməsi mümkün deyil.

Səhv etmirəmsə, Ermənistanda əsgərlərin Azərbaycan ərazisinə göndərilməməsi ilə bağlı qərar qəbul edilib. Bu isə istər-istəməz hərbi xərclərin müəyyən qədər azaldılmasına gətirib çıxardacaq. Düzdür, bu addım həm də büdcənin bir qədər azad nəfəs alması deməkdir. Amma Ermənistan qonşu dövlətlərlə normal münasibət yaratmasa, öz iqtisadiyyatını qurması, əhalinin sosial vəziyyətini yaxşılaşdırması qeyri-mümkün olacaq".

# Lavrovun açıqlaması Kremlin maraqlarına ağır zərbədir

## Əgər Rusiya Avropa Birliyi ilə əlaqələri kəsəcəksə, nefti, qazı kimə satıb büdcəsini dolduracaq?



"Rusiya Avropa İttifaqı ilə əlaqələri kəsməyə hazırdır". Bunu Rusiya Xarici işlər naziri Sergey Lavrov bildirib. "Əgər bir daha görsək ki, hansısa sahələrdə, o cümlədən ən həssas sferalarda, iqtisadiyyatımız üçün risklər yaradan sanksiyalar tətbiq olunur... Biz dünyadan təcrid olunmaq istəmirik, lakin buna hazır olmaq lazımdır. Sülh istəyirsənsə, müharibəyə hazır olmalısan", - deyə Rusiya XİN başçısı "Solovyov.Live" youtube kanalına müsahibəsində bildirib.

***Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Natiq Miri hesab edir ki, bu daha çox təzyiq xarakterli, boğazdan yuxarı verilmiş bir açıqlamadır.*** *Politoloq qeyd edib ki, çünki Rusiyanın ən böyük enerji bazarı məhz Avropa Birliyi ölkələridir:* "Bildiyiniz kimi, enerji də, əsasən Rusiya büdcəsinin 60 faizini təşkil edir. Əgər Avropa Birliyi ölkələri ilə Rusiya əlaqələri kəsəcəksə, bu zaman ortaya sual çıxır. Belə olacağı təqdirdə Rusiya nefti, qazı kimə satmaqla bu büdcəni dolduracaq? Bu, məsələnin ən əsas tərəfidir. Hesab edirəm ki, buna alternativ tapılmadan bu cür deyilən açıqlamalar daha çox boğazdan yuxarı deyilən açıqlama kimi dəyərləndirilməlidir. Ayrıca bildiyiniz kimi, milyardlarla dollar sərmayə qoymaqla, Almaniyaya şimal içi axını deyiləcək yeni qaz xətti çəkilib. Bu qaz xətti real olaraq fəaliyyətə başlamamış Rusiyanın bütövlükdə Avropa Birliyi ilə əlaqələri kəsməsi haqqında verdiyi açıqlamalar da fikrimcə, inandırıcı görsənmir. Ona görə də düşünürəm ki, bu, daha çox informasiya savaşının tərkib hissəsidir və təzyiq xarakteri olaraq səsləndirilir. Ayrıca Rusiyanın əsas texnoloji təchizatı da məhz qərb dünyası, xüsusilə də Avropa dünyasından gəlir. Ona görə də, açığı, Lavrovun açıqlamasını səmimi qəbul etmirəm".

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri Elxan Şahinoğlu deyib ki, enerji mövzusundan başqa Brüssellə Moskva arasında bütün digər mövzular ətrafında diametral kəsişmələr mövcuddur. Ekspertin sözlərinə görə, Almaniya da digər Avropa ölkələri kimi Rusiyaya qarşı sərt sanksiyaların tərəfdarıdır:** "Ancaq eyni zamanda Rusiyadan Baltik dənizinin dibi ilə çəkilən qaz boru xəttindən imtina etmək istəmir. Almaniya Rusiya qazı hesabına iqtisadiyyatını yüksək səviyyədə saxlamaq istəyir. Amerikanın keçmiş prezidenti Donald Tramp Almaniyanı nəzərdə tutaraq yaxşı demişdi: "Rusiyadan qorunmağa gəldikdə Amerikaya yalvarırsız, ancaq enerjiyə gəldikdə "qorunmağa" çalışdığınız ölkənin qazını almağa çalışırsınız".

Kreml sahibi 2014-cü ildə Krımı ilhaq qərarı verəndə artıq anlayırdı ki, Brüssellə əlaqələr əvvəlki kimi olmayacaq. Rusiya prezidenti Krımın ilhaqını Brüssellə əməkdaşlığa və Ukraynanı itirməyə qurban verdi. Bundan sonra Rusiyada və kənarda Putinin tənqidçiləri müəmmalı şəkildə "yox" olmağa başladılar ki, bu da Brüsselin diqqətindən kənarda qalmadı. Aydındır ki, Kreml Krımı sahibinə geri qaytarmayacaq. Deməli, Moskva ilə Brüsselin münasibətlərinin soyumasına səbəb olan ilk səbəb varlığını qoruyacaq. Ancaq o da var ki, Avropa İttifaqı Rusiyasız keçinə bilər, ancaq neft və qaz satışı hesabına iqtisadi varlığını qoruyan Rusiyanın isə köhnə qitənin bazarına hər zaman ehtiyac olacaq".

**Aynurə Pənahqızı**



## Ceyhun Əliyev öz ərizəsi ilə getdi

### Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri dəyişib

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri dəyişib.**

Ceyhun Əliyev (Ceyhun Əli) öz ərizəsi ilə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifəsindən azad edilib.

Bu vəzifəyə Mehman Qayıbov təyin edilib. M. Qayıbov Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi müdirinin müavini olub.

C. Əli APA-ya açıqlamasında öz ərizəsi ilə işdən azad edildiyini təsdiqləyib. O bildirib ki, yaradıcı insan kimi ötən dövr ərzində televiziyada fəaliyyət göstərib, bundan sonra da televiziya sahəsində çalışmaqla Milli Məclislə əməkdaşlığı sırf piar layihələr formatında davam etdirəcək.

# Parlamentə "pas" ötürülüb

## "İcralar ləğv edilib, yeni modelə keçilir"

Milli Məclisin dünən keçirilən iclasında millət vəkili Qüdrət Həsənquliyev maraqlı təkliflə çıxış edib. Onun fikrincə, icra hakimiyyətləri ləğv olunmalıdır. Deputat bildirib ki, Prezident tərəfindən təyin edilən adamlar xalqa yox, onlar Prezidentə hesabat verirlər: "Amma buna görə seçkili orqan olan bələdiyyələrin səlahiyyətləri artırılmalıdır. Buna getməsək, ciddi inkişafa nail ola bilmərik.



Dünya təcrübəsi var. O təcrübələr göstərir ki, yerli hakimiyyətləri xalq formalaşdırmalıdır. Gələcəkdə icra hakimiyyətləri ləğv olunmalıdır. Onların bütün səlahiyyətləri bələdiyyələrə verilməlidir".

*Digər parlament üzvü Fazil Mustafa səslənən təklifi dəstəkləyib. Parlamentari xüsusi nümayəndəliyin yaradılmasının daha məqsədəuyğun olduğunu düşünür:* "Nisbətən gözdən düşmüş icra hakimiyyəti institutunu bütün bölgələrdə prezidentin xüsusi nümayəndəliyi institutu ilə əvəz etməliyik"- deyə o, bildirib.

**Elçibəy hakimiyyəti dönəmində icra başçısı vəzifəsində çalışmış "Borçalı" İctimai Birliyinin sədri Zəlimxan Məmmədli "Şərq"ə açıqlamasında müzakirə predmetinə belə münasibət bildirdi:** "Parlament belə təşəbbüslə çıxış edirsə, deməli, "pas" ötürülüb. İdarəetmənin səmərəliliyinin, rentabelliyinin, həmçinin büdcəyə qənaətin zəruri olduğunu nəzərə alsaq, yeni bir idarəetmə modeli barədə düşünə bilərik.

Amma bu, əsaslandırılmalıdır. Hərənin bir söz deməsi ilə deyil.

Bir neçə nəfər istisna olmaqla parlamentdəkilərin əksəriyyəti sözügedən məsələyə dair fikir söyləmək iqtidarında deyil. Ümumiyyətlə, çoxu xalqın iradəsini ifadə etmir.

Başa düşmək lazımdır ki, idarəetmə elmi əsaslı mexanizmdir.

Mənə qalsa, layihə forması hazırlaya bilərəm. Lakin bu, mənim işim deyil. Prezident hansı formanın daha doğru olduğunu düşünürsə, elə də etməlidir.

Fikrimcə, bütün hallarda idarəetmə sistemi təkmilləşməli və yerli icra hakimiyyətləri ilə bələdiyyələr arasında səlahiyyət bölgüsü olmalıdır".

**Kənan Novruzov**

# İcra hakimiyyətlərinin dövranı bitir

## Prezidentin xüsusi nümayəndəsi yerlərdə sərəncam və göstərişlərin icrasına nəzarət edəcək

Torpaqlarımızın işğaldan azad edilməsi yeni idarəçilik modellərinin tətbiqinə imkan verir. Xatırladaq ki, bir müddət öncə Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncam imzaladı. Sərəncama əsasən Aydın Zöhrab oğlu Kərimov Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin edildi. Qeyd edilir ki, A.Kərimov bu təyinata qədər Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müşaviri vəzifəsində çalışıb.

"Ağ şəhər" layihəsinin icrasında iştirak edib və bu cür layihələrin icrasında təcrübəyə malikdir. Prezidentin bu təyinatı da, böyük ehtimalla Şuşa şəhərinin yenidən qurulması prosesinə təcrübəli kadrın cəlb edilməsi, aparılan quruculuq və bərpa işlərinə nəzarəti həyata keçirməkdir. Çünki nəinki Şuşada, həmçinin işğaldan azad edilmiş bütün ərazilərdə yenidənqurma, abadlıq, tikinti işlərinə birbaşa Prezidentin özünün nəzarət edəcəyi məlumdur. Bunu cənab Prezident özü də vurğulayıb. Gözlənilir ki, işğaldan azad edilmiş bütün ərazilərə yaxın zamanda xüsusi nümayəndələr təyin olunacaq və bu da ölkədə xüsusi nümayəndəlik institutunun formalaşması ilə yekunlaşacaq.

Milli Məclisin ötən gün keçirilmiş iclasında da Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin, onun müavininin və nümayəndəliyin mütəxəssislərinin hüquqi statusu müəyyən edilib. Bununla bağlı "Dövlət qulluğu haqqında" qanuna yeni anlayışlar daxil edilib.



**Sərdar Cəlaloğlu: "Mən illər öncə bu təkliflə çıxış etmişdim ki, Prezidentin fərman və sərəncamlarının, göstərişlərinin, tapşırıqlarının icrasına nəzarət edəcək bir qurum yaradılsın, mən ona rəhbərlik edərəm"**

Dəyişikliyə əsasən, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin müavinlərinin vəzifələri, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərində mütəxəssislərin vəzifələri inzibati və yardımçı vəzifələr hesab ediləcək. Təklif müzakirələrdən sonra səsə qoyularaq qəbul edilib.

Yeni idarəetmə strukturu ilə yerli icra hakimiyyəti strukturu arasındakı fərq də hazırda müzakirə mövzusudur. Xüsusi nümayəndənin səlahiyyətləri ilə icra başçılarının səlahiyyəti üst-üstə düşmür ki? Burda bir məqamı vurğulamaq yerinə düşər ki, son illərdə icra hakimiyyətlərindən narazılıqlar xeyli artıb. Neçə icra başçısı məhz vəzifəsindən sui-istifadə etdiyinə, korrupsiyaya bulaşdığına, yeyintilərə yol verdiyinə, dövlət büdcəsinə ziyan vurduğuna görə vəzifəsindən kənarlaşdırılıb və hüquqi çərçivədə məsuliyyətə cəlb edilib. Yəni bu illər ərzində kabinetindəki seyfindən dəstə-dəstə pullar çıxan icra başçılarını da gördük, müğənnilərdən tutmuş sıravi vətəndaşlara qədər işğaldan azad edilmiş yurd yerlərini ziyarət edənlərə rəğmən ermənilər hər yeri minalayıb deyə Şuşaya "gedib çıxa bilməyən" icra başçılarını da. Elə bu məsələlər də icra hakimiyyətlərinin lazımsız bir qurum kimi, daha doğrusu, yeyinti mənbəyinə çevrilmiş bir qurum kimi ləğvi məsələsini aktuallaşdırıb. Bu baxımdan Prezidentin xüsusi nümayəndələrinin təyinatı yaxın zamanda icra hakimiyyəti strukturunun tamamilə ləğv ediləcəyi ehtimalını gücləndirir. Hələliksə, idarəetmə strukturlarının hər ikisi fəaliyyətdədir. Kim nəyə nəzarət edəcək, kim hansı işi görəcək?

**ADP sədri Sərdar Cəlaloğlu "Şərq"ə açıqlamasında qeyd etdi ki, sabiq prezident Əbülfəz Elçibəyin zamanında fərqli adla, lakin təxminən eyni səlahiyyətlərə malik qurum fəaliyyət göstərib:**

- Prezident Administrasiyasında Prezident İnspeksiyası yaradılmışdı. Bu inspeksiyanın işi yerlədə icra hakimiyyətlərinin fəaliyyətinə nəzarət etmək idi. Faktiki Prezidentin sərəncam və göstərişlərinin icrasına nəzarət edən qurum idi. Mən illər öncə bu təkliflə çıxış etmişdim ki, Prezidentin fərman və sərəncamlarının, göstərişlərinin, tapşırıqlarının icrasına nəzarət edəcək bir qurum yaradılsın, mən ona rəhbərlik edərəm. Çünki belə bir strukturun olması çox vacibdir. Bu struktur Prezidentin vəzifəyə təyin etdiyi, hansısa tapşırıq verdiyi adamların üzərində nəzarəti həyata keçirməlidir. İndi Prezidentin xüsusi nümayəndələrinin statusu müəyyən edilib, bununla bağlı qanuna müvafiq düzəlişlər, yeniliklər edilib. Çox yaxşı. Amma gecikmişik. Gərək bu, çoxdan olaydı.

**S.Cəlaloğlu qeyd etdi ki, Prezidentin xüsusi nümayəndəsinin, onun müavini və nümayəndəliyin mütəxəssislərinin hüquqi statusunun müəyyən edilməsi nəzarətin həyata keçirilməsində faydalı olacaq:**

- Bu, yeni nəzarət mexanizmi kimi düşünülüb. Xüsusən nümayəndə Prezidentin sərəncamlarının, göstərişlərinin icrasına nəzarət edəcək. İcra hakimiyyəti sərəncamları, verilən tapşırıqları icra etmək üçündür. Xüsusi nümayəndəlik isə icraya nəzarət üçün lazımdır. Bəzən Prezident özü də narazılıq edirdi ki, yerlərdə nəzarət zəifdir, nəzarət mexanizmi güclü olmalıdır. Xüsusi nümayəndəliklər bu işin öhdəsindən gəlməlidir. Şuşaya Prezidentin xüsusi nümayəndəsi təyin olunduğu kimi, işğaldan azad edilmiş digər ərazilərdə də xüsusi nümayəndələr olmalıdır.

**S.Cəlaloğlu Türkiyə idarəetmə modelində də belə nəzarət mexanizminin olduğunu dedi:**

- Türkiyədə bir qədər fərqli sistemdir. Valilik, kaymakamlıq var, bələdiyyə var. Məsələn, vali prezidentin təmsilçisidir. Prezidentin nümayəndəsi. Hökumətin səlahiyyətli nümayəndəsidir. İdarəetmənin geidişi ilə maraqlanır. Bəzi ölkələrdə qubernator vəzifəsi ilə eynidir. Kaymakam isə rayonun - mahalın (vilayətin) mülki idarə əmiridir. Valinin təmsilçisidir. Onun əmrlərini, tapşırıqlarını yerinə yetirir. Bələdiyyənin də fəaliyyətinə nəzarət edir. Türkiyədə bölgə, mahal, ilçe kimi inzibati bölgülər var və əhali sayına, vilayəti təşkil edən kəndlərin sayına görə dəyişir. Hər ölkədə fərqli idarəetmə sistemi ola bilər. Amma Prezidentin xüsusi nümayəndələrinin təyin edilməsi, indiki vaxtda xüsusilə də işğaldan azad edilmiş ərazilərimiz üçün vacibdir.

**Məlahət Rzayeva**

# Ermənistana yeganə yol Laçın dəhlizidir

## "Təxribatçıların özbaşınalığına, köhnə vəziyyətə qayıtmaq cəhdlərinə reaksiyamız çox sərt olmalıdır"



Rusiya Laçın dəhlizi və Qarabağ ermənilərinin Ermənistana gediş-gəlişi ilə bağlı ziddiyyətli məqamlara aydınlıq gətirib. Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova erməni jurnalistin "Dağlıq Qarabağ ermənilərinin Ağdərə-Vardenis yolundan istifadəsi" ilə bağlı sualına cavabında deyib ki, keçid üçün yeganə marşrut Laçın dəhlizidir:

"Dağlıq Qarabağla Ermənistan arasında əlaqə Laçın dəhlizi vasitəsilə ilə həyata keçirilir. Bu barədə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr üçtərəfli bəyanatının 6-cı bəndində qeyd olunub. Bunu siz mənsiz də yaxşı bilirsiniz". Xatırladaq ki, Xankəndi və Qarabağın yuxarı ətrafında yaşayan ermənilər Laçın dəhlizinədək olan məsafənin uzun olduğunu əsas gətirərək Ermənistana gediş-gəliş üçün Kəlbəcər üzərindən Ağdərə-Vardenis yolunun açılmasını istəyiblər. Göründüyü kimi, ermənilərin israrlı tələblərinə baxmayaraq, rəsmi Moskva Zaxarovanın diliylə məsələyə birdəfəlik son qoyub. Rusiya XİN təmsilçisinin də vurğuladığı kimi, Ermənistana yeganə yol Laçın dəhlizidir.

**AMİP sədri Arzuxan Əlizadə "Şərq"ə bildirib ki, ermənilərin məqsədi təxribat törətmək, müzakirələri tormozlamaq və beynəlxalq ictimai fikri fərqli istiqamətə yönəltməkdir.** Partiya rəhbərinin sözlərinə görə, Rusiya 10 noyabr Bəyannaməsi ilə erməniləri tam məhv olmaqdan xilas etdi. Rus sülhməramlıları Qarabağa yerləşən kimi dərhal köç prosesinə start verdilər. Son rəqəmlərə görə, artıq 50 mindən çox erməni rusların vasitəsi ilə Qarabağa daşınıb: "Rusiya ermənilərin Qarabağa daşınmasını, bütün humanitar yardımları məhz Laçın dəhlizi ilə reallaşdırıb. Ermənilərin məqsədi rahat gediş-gəliş əldə etmək yox, üçtərəfli anlaşmadan sonrakı prosesi mümkün qədər zədələməkdir. Ermənilər müvafiq sənədə əsasən, onlara tanınan bütün imkanlardan maksimum yararlanır. Onsuz da ermənilərin Laçın dəhlizindən rahat şəkildə istifadə etməsi, Azərbaycanın sərhəd xidmətinin və hüquq-mühafizə orqanlarının nəzarətindən kənar olması bizi kifayət qədər narahat edən məqamdır. Bununla bağlı ölkə ictimaiyyətində narazılıq böyükdür. Ümid edirik, qısa zamanda Ermənistanla rəsmi sərhədlərimiz bərpa olunacaq və Qarabağ ermənilərinin gediş-gəlişi sərhəd məntəqələrimizdə Azərbaycanın nəzarəti və icazəsi ilə baş tutacaq. İndiki məqamda isə ermənilərin özbaşınalığına, köhnə vəziyyətə qayıtmaq cəhdlərinə reaksiyamız çox sərt olmalıdır. Rusiyanın da məsələyə konkret mövqe bildirməsi müsbət haldır".

**İsmayıl Qocayev**

## 20-yə yaxın aksiya iştirakçısı saxlanılıb

Yerevanda keçirilən aksiya zamanı polislə qarşıdurma olub



**Ermənistan paytaxtında növbəti etiraz aksiyası keçirilib.**

Erməni KİV-ləri xəbər verir ki, "Vətənin qurtuluşu hərəkatının" lideri Vazgen Manukyanın təşəbbüsü ilə təşkil olunan aksiya zamanı polislə qarşıdurma yaranıb.

Vazgen Manukyan baş nazir Nikol Paşinyanın istefası ilə bağlı fevralın 20-də daha böyük mitinqin keçiriləcəyini bəyan edib. O deyib ki, Paşinyanın partiyası yayda növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı məlumat yayıb. "Lakin bu bizim üçün əsas deyil və biz mübarizəmizi sonadək davam etdirəcəyik", - deyə Manukyan vurğulayıb.

Onun çıxışından sonra mitinq iştirakçıları bir sıra şüarlar səsləndiriblər. Polisin intizam çağırışına etiraz edən bir qrup hüquq-mühafizə orqan əməkdaşlarına hücum edib.

Polislə qarşıdurma yaranıb və 20-yə yaxın aksiya iştirakçısı saxlanılıb.

Bildirilib ki, fevralın 20-də daha böyük və izdihamlı mitinq keçiriləcək.



# Cəmiyyəti narahat edən xeyli problemlər var

## Qanunların icrasına parlament də nəzarət etməlidir

"Ölkədə qanunvericilik bazası mükəmməl olsa da, qanunların icrası ilə bağlı xeyli çatışmazlıqlar var". Bu barədə "Şərq"ə açıqlamasında millət vəkili Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, cəmiyyətdə qanunların icrası qənaətbəxş deyil, bu da ciddi problemlərə gətirib çıxarır: "Qəbul edilən qanunların icrasına ciddi nəzarət mexanizmləri qurulmalıdır.

Nəzarət prosesi standartların müəyyən olunmasını, faktiki əldə olunmuş nəticələrin qiymətləndirilməsini və zəruri halda təyin edilmiş standartlara düzəlişlər edilməsini əks etdirir. Bütün sahələr üzrə yüksək səviyyəli qanunların qəbul edilməsinə baxmayaraq, qanunun icrası ilə bağlı ciddi problemlərin olduğunu görürük. Bu istiqamətdə qanunların icrasına məsuliyyət daşıyan qurumlarla müzakirələrin aparılmasına ciddi ehtiyac var. Çalışmalıyıq ki, qəbul etdiyimiz qanun layihələri yüksək səviyyədə həyata keçsin".

*Parlament üzvü təklif edib ki, Milli Məclisə qanunların icrasına nəzarət funksiyaları verilməlidir:* "Milli Məclisin Komitələri öz sahələrinə aid olan qanunların hansı səviyyədə icra olunmalarına, ümumiyyətlə, işləyib-işləmədiyinə ciddi nəzarət etməlidilər. Parlamentin deputatları düzgün icra olunmayan qanunlar haqqında daim məsələ qaldırmalıdırlar. Komitələr və deputatlar qanunlardakı ziddiyyətləri hər zaman müzakirə etməlidirlər. Müəyyənləşməlidir ki, hansı qanunlar daha çox pozulur və qanun pozuntuları hansı səbəbdən yaranır. Dünya təcrübəsində də parlamentin nəzarət funksiyasından istifadə olunur. ABŞ-da Konqresin konstitusiya səlahiyyətləri xeyli genişdir. Parlamentin nəzarət funksiyası deputatların və vətəndaşların qurumlarla olan münasibətini də tənzimləyəcək. Milli Məclis sırf qərar verməyəcək, qanunların icrasına da nəzarət edəcək. Bununla qanunların işləkliyi daha da artacaq".

**İsmayıl Qocayev**

# Kim yurduna qayıdacaq?

## Keçmiş köçkünlər arasında sorğu keçirilir

**Məlum olduğu kimi Prezident İlham Əliyevin təlimatına əsasən, məcburi köçkünlərimizin doğma yurdlarına, işğaldan azad olunmuş torpaqlarımıza qayıdışı ilə bağlı keçmiş köçkünlər arasında sorğu aparılır.**



Məqsəd bərpa prosesindən sonra Qarabağa qayıdacaq insanların sayını müəyyən etməkdir. Bu proses təkcə Bakıda deyil, keçmiş məcburi köçkünlərin məskunlaşdığı bütün şəhər və rayonlarda həyata keçirilir.

### "Qarabağa qayıdan ilk ailə biz olacağıq. Qarabağı görməyən övladlarım da mənimlə eyni fikirdədirlər"

**Əslən Cəbrayıl rayonundan olan jurnalist, "Yenisabah.az" saytının baş redaktoru, Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə "Şərq"ə açıqlamasında sorğuda iştirak etdiyini bildirib.** Baş redaktor qeyd edib ki, ailə üzvlərinin iştirakı ilə yaşadığı ərazinin mənzil-istismar sahəsinin əməkdaşlarını maraqlandıran bütün suallara cavab verib: "Cəbrayıl işğaldan azad olunduğu gün mövqeyimizi bildirmişik. Qarabağa qayıdan ilk ailə biz olacağıq. Qarabağı görməyən övladlarım da mənimlə eyni fikirdədirlər. Biz ailəlikcə ata yurdumuza dönüb oranı cənnətə çevirəcəyik".

S.Verdizadə deyib ki, təkcə onlar deyil, yaxın qohumları, həmkəndliləri də sorğuda iştirak ediblər: "Hamı geri qayıtmağı səbirsizliklə gözləyir. Keçmiş köçkünlərin böyük əksəriyyəti geri qayıdacaq. Qarabağın hər qarışı vətən övladlarının qanı ilə sulanıb. O torpaqlara qayıtmasaq, şəhidlərin ruhu bizi bağışlamaz!".

Baş redaktorun sözlərinə görə, qarabağlıların öz ata-baba yurduna qayıtması bölgədə fərqli siyasi şərait yaradacaq: "Biz ermənilər kimi rus çarı ilə İran şahının gizli anlaşması nəticəsində Qarabağa köçməmişik. Qarabağ bizim ana vətənimizdir. Biz bu torpağın gerçək sahibləriyik. Ermənilər anlamalıdırlar ki, torpağın əsl sahibləri geri qayıdır. Bundan sonra heç kim bizim evimizdə ağalıq edə bilməyəcək. Qonaq ya ev sahibinin müəyyənləşdirdiyi qaydalara əməl etməli, ya da cəhənnəm olub getməlidir".

**İsmayıl**

# "Qızıl amnistiya" gözlənilir

## Rəşad Məcid: "İnanıram ki, "qızıl amnistiya" təşəbbüsünün olması ölkədəki milli birlik və "Dəmir yumruq" ab-havasını daha da gücləndirəcək"



**Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri, deputat Zahid Oruc bu il "qızıl amnistiya" qərarının olacağı ehtimalını irəli sürüb. Millət vəkili bildirib ki, Vətən Müharibəsində qələbə milli birlik olmadan qazanıla bilməzdi.**

Onun sözlərinə görə, Ali Baş Komandan İlham Əliyev bütün idarəçiliyi dövründə dövlətin humanizm siyasətini digər tədbirlərdən üstün tutub:

"Əfv Komissiyasının üzvü kimi aldığımız müraciətlərin içərisində son dövrlər məhz şəhid ailələrinə və yaralı hərbçilərimizə yaxın insanların, eləcə də arxa cəbhədə fədakarlıq göstərən insanlarımızın yaxınları ilə bağlı böyük əfv, yaxud "qızıl amnistiya" gözləntisində olanlar çoxluq təşkil edir.

Prezident İlham Əliyevin "qızıl amnistiya" qərarı ilə çıxış edəcəyi haqda informasiyaları Zəfər salnaməmizin davamı kimi görmək istəyənlər daha çoxdur. Lakin bir qədər gözləyək və sıx iş qrafiki altında, gərgin beynəlxalq və daxili gündəlik, xüsusilə Böyük Qayıdış strategiyası üzərində çalışan ölkə rəhbərinin ən mühüm dövləti işlər içərisində azadlıq arzusunda olan insanları da sevindirəcəyinə hər birimiz dərindən inanırıq. Qəbul ediləcəyi təqdirdə "qızıl amnistiya" ictimai-siyasi-hüquqi akt kimi yeni tariximizə mühüm səhifə kimi daxil olacaq".

**Prezident yanında Əfv Komissiyasının üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid "Şərq"ə açıqlamasında bildirib ki, son 1 ildə Əfv Komissiyası pandemiya səbəbindən toplaşmayıb:**

"Adətən yanvar ayından sonra bu iclaslar başlayırdı. Obyektiv səbəbdən isə toplantılar baş tutmur. Lakin əhali, xüsusilə məhkum edilmiş şəxslərin yaxınları çox maraqlanır. Ona görə də amnistiya məsələsinin gündəmə gəlməsi məqsədəuyğun olar. Çünki amnistiya ilə bağlı sonuncu dəfə bir neçə il öncə Birinci vitse-prezident Mehriban xanım Əliyeva Parlamentdə çıxış etmişdi".

**R.Məcid qeyd edib ki, 44 günlük Vətən müharibəsini uğurla başa vumuşuq, ölkəmizdə xoş bir ovqat yaranıb:**

"Əlbəttə, bu ovqat bütün ölkəyə, o cümlədən məhkumlara və onların yaxınlarına təsir göstərib. Fikrimcə, belə bir zamanda amnistiya aktı qəbul olunsa, yaxşı olar.

Zahid Orucun fikirlərini dəstəkləyirəm. İnanıram ki, "qızıl amnistiya" təşəbbüsünün olması ölkədəki milli birlik və "Dəmir yumruq" ab-havasını daha da gücləndirəcək".

**Yeganə Bayramova**

# Njdenin Xocavənddə abidəsinin götürülməsi növbəti qələbədir

## Cümşüd Nuriyev: "Baş verənlər ermənilər üçün bir dərs oldu"



**Ermənistanın müstəqil deputatı və "Mənim addımım" fraksiyasının keçmiş üzvü Sofiya Hovsepyan Njdenin heykəlinin götürüldüyünü bildirib. Onun sözlərinə görə, abidə artıq Xocavənddəki tarix muzeyinə təqdim edilib. Erməni teleaparıcı-jurnalist Nairi Oxikyan isə özünün feysbuk səhifəsində Njdenin heykəlinin şəklini yerləşdirərək bu sözləri yazıb:**

"Bu, Xocavənddə Qaregin Njdenin abidəsidir. Rus sülhməramlıları abidənin taleyinə görə ermənilərin yerinə məsuliyyət daşımaq istəmirlər".

**Baş verənləri "Şərq"ə şərh edən siyasi elmər namizədi, politoloq Cümşüd Nuriyev bildirib ki, Njdenin heykəlinin qoyulması bir provokasiya idi:** "Təbii ki, Azərbaycan tərəfi bunu qəbul edə bilməzdi. Çünki Q.Njde İkinci Dünya müharibəsi zamanı Hitlerin ən yaxın adamlarından biri olub. Belə bir adamın heykəlinin qoyulması Rusiyaya da bir şillə idi.

Həm Azərbaycan, həm də Türkiyənin təkidi idi. Njdenin Xocavənddəki heykəli götürüldü. Bu gün erməni deputat Sofiya Hovsepyan bu məlumatı yayıb".

*Politoloq qeyd edib ki, heykəlin götürülməsi Azərbaycan və Tükiyənin növbəti siyasi qələbəsidir:* "Baş verənlər ermənilər üçün bir dərs oldu. Çünki Ermənistan parlamenti səviyyəsində məsələyə münasibət bildirilirsə, deməli, bu, Ermənistanın dövlət siyasəti idi.

Azərbaycan öz ərazisində ermənilərin istəyi ilə nələrinsə olacağının qeyri-mümkünlüyünü göstərdi.

Bəziləri kimlərinsə tapşırığı ilə Azərbaycan Ordusunun qələbəsinə kölgə salmaq istəyirdilər. Onların da arzuları ürəklərində qaldı. Tam əminəm ki, tezliklə Xankəndi və Xocalıya qayıdacağıq. Çünki Azərbaycanın yürütdüyü siyasət bunu göstərir.

Njdenin heykəlinin götürülməsi ilə bağlı xalqımıza gözaydınlığı verirəm. Azərbaycanlılar öz iradəsini ortaya qoydu və məsələ həllini tapdı".

**Yeganə**



**"Bildiyiniz kimi, Gürcüstandakı müxalif qüvvə parlament seçkilərinə etiraz edərək, nəticələrin qeyri-obyektiv olduğunu deyirdi. Amma hakimiyyət səslənən fikirlərə məhəl qoymadı.**

Ardınca "Gürcü arzusu" Partiyasının sədri Bidzina İvanavşili siyasətdən getdiyini bəyan etdi. Məqsəd sabitlik yaratmaq idi.

# "Növbədənkənar seçkilər keçirilməlidir"

## Sədrəddin Soltan: "Gürcüstanda polis hərbi sisteminin yaradılacağı ağlabatan deyil"



Gürcüstanın paytaxtı Tbilisidə "Gürcü arzusu" Partiyasının mərkəzi ofisi qarşısında etirazçılar və polis arasında qarşıdurma yaşanıb. Aksiyanın təşkilatçıları "Gürcüstan hərəkatı"nın üzvləri olub.

Etirazçılar mərkəzi ofis binası yaxınlığında yerə müxtəlif sloqanlar yazıblar və bu zaman vəziyyət gərginləşib. İnsident zamanı polis iki nəfəri saxlayıb. Hazırda ərazidə vəziyyət gərgin olaraq qalmaqdadır.

Qeyd edək ki, etirazçılar komendant saatının götürülməsini və ölkədə sistemli dəyişikliklər tələb edirlər. Əlbəttə, Gürcüstanın "qaynar qazan" həddinə çatması ölkə üçün heç də yaxşı gələcək vəd etmir.

**Bu barədə "Şərq"ə danışan politoloq Sədrəddin Soltanın sözlərinə görə, hakimiyyət müxalifətlə kompromisə getməyə məcburdur:**

Gürcüstan baş nazirinin istefa xəbəri də narazılıqları səngitməyə hesablanmışdı. Amma problemin belə asanlıqla həll olunacağını gözləmirəm. Parlamentin buraxılması və müxalifətə hakimiyyətlə işləməyin təklif edilməsi əsas çıxış yoludur.

Çünki müxalifət parlamentdə təmsil olunmayınca, seçkilərin demokratikliyinə şübhə qalacaq. Bir sözlə, Avropa ölkəsi olmaq istəyən Gürcüstan hökumətinin narazı qüvvələrlə razılaşmaqdan başqa yolu yoxdur.

Fikrimcə, seçkilərdəki qanun pozuntuları aradan qaldırılmalı və növbədənkənar seçkilər keçirilməlidir. Polis hərbi sisteminin yaradılacağı isə ağlabatan deyil".

**Kənan**

# Ortaq məxrəc tapılacaq

## Ankaraya qarşı təzyiqlər daimi ola bilməz

**Son zamanlar dünyanın siyasi müstəvisində ən çox müzakirə edilən mövzulardan biri də Türkiyə-ABŞ münasibətləridir. ABŞ-ın yeni Prezidenti Co Bayden seçilər-seçilməz müəyyən istiqamətlərdə addımlar atdı.**



### ABŞ Türkiyə olmadan bir sıra bölgələrdə mövqeyini qoruya bilməz

Güclü siyasi mövqelərə malik olan hər iki ölkə üçün münasibətlər həyati əhəmiyyət daşıyır. Lakin Co Bayden dönəminin ilk mərhələsində Türkiyə ilə əlaqələr o qədər nəzərə çarpmır.

Türkiyənin Xarici İşlər Nazirliyinin sözçüsü Hami Aksoy isə ABŞ-ı ölkənin daxili işlərinə qarışmamağa və Türkiyə məhkəmələrinin qərarlarını müzakirə etməməyə çağırıb.

O bildirib ki, Türkiyə hüquqi dövlətdir: "Biz ABŞ Dövlət Departamentinin Osman Kavalanın (insan haqları müdafiəçisi. red) sərbəst buraxılması tələbinə cavab vermişik. Heç bir dövlət Türkiyə məhkəmələrinə əmr verə bilməz".

**Türkiyə-ABŞ münasibətləri barədə "Şərq"lə fikirlərini bölüşən siyasi analitik Turab Rzayev vurğulayıb ki, rəsmi Vaşinqtonun digər ölkələrə qarşı demokratiya, insan haqları, həbsdə olan jurnalist və fəalların yaxud məhbuslar üzərindən siyasət fəaliyyətini həyata keçirməsi tez-tez rastlaşdığımız məsələdir.** Böyük ehtimal, Türkiyə ilə münasibətlər də belə olacaq: "Artıq demokratlar ilkin xəbərləri verirlər. Səudiyyə Ərəbistanı ilə Camal Qaşıqçının qətlinə dair yeni müzakirələr açılır. Həmçinin Yəmən bombalanır və insanlar aclıqdan əziyyət çəkir. Bununla bağlı ABŞ Səudiyyə Ərəbistanına qarşı silah embarqosu qoyub. Demokratlar respublikaçılardan fərqlənir. Respublikaçılar hərbi maraqlardan çıxış edir, demokratlar isə insan haqları kimi məsələləri irəli sürürlər. Türkiyəylə qarşılıqlı anlaşana qədər iki ölkə arasında qarşıdurmaları müşahidə edəcəyik. Güman ki, jurnalistlərin, etnik siyasi fəallarla bağlı belə tələblər olacaq. Lakin bu başlanğıcdır, daha sonra ortaq məxrəcə gələcəklər".

T.Rzayev deyib ki, ABŞ Türkiyə olmadan Yaxın Şərqdə, Şimali Afrikada, Şərqi Avropada, Balkanlarda, Qara dəniz və Xəzər dənizi hövzəsində mövqeyini qoruya bilməz: "Ola bilər ki, Türkiyə ilə razılaşıb onu özlərinə yaxınlaşdırmaq istəyirlər və yaxud da rəsmi Ankaranı belə şəraitə uyğunlaşdırmağa çalışırlar. Türkiyəylə ABŞ arasında daimi təzyiq mümkün deyil, çünki belə məsələ Amerikanın şəxsi maraqlarına zərbə vura bilər".

**Aygün Tahirqızı**



# Karvan ünvanındadır

## Rusiya sülhməramlılarının müşayiəti ilə inşaat materialları Şuşaya çatdırılıb

**Rusiya sülhməramlı qüvvələri tərəfindən Azərbaycanın avtomobil texnikası karvanının təhlükəsizliyini təmin edilib.**

APA-nın Moskva müxbirinin Rusiya Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, Azərbaycan tərəfinin xahişi əsasında Rusiya sülhməramlılarının müşayiəti ilə inşaat materialları daşıyan 60-dan çox yük avtomobilinin təhlükəsiz şəraitdə Şuşaya çatdırılması təmin olunub.

Bildirilib ki, Rusiya sülhməramlı kontingenti bundan sonra da üçtərəfli bəyanatın icra olunmasına və regionda dinc həyatın bərpa olunmasına yardım edəcək.

# Koronavirusa yoluxma sayı yenə artdı

## Son sutkada 191 nəfər yoluxub, 3 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 191 yeni yoluxma faktı qeydə alınıb, 226 nəfər müalicə olunaraq sağalıb.** Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 231 840 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 226 345 nəfər müalicə olunaraq sağalıb, 3 173 nəfər vəfat edib, aktiv xəstə sayı 2 322 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 260, ötən müddət ərzində isə ümumilikdə 2 485 483 test aparılıb.

# Qəbələ sakini ayı ilə əlbəyaxa olub

## Bakı şəhərinə mərkəzi xəstəxanaya göndərilib



**Qəbələ rayon sakini vəhşi heyvanın hücumuna məruz qalıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, hadisə rayonun Vəndam qəsəbəsi ərazisində qeydə alınıb. Qəsəbə sakini Fərman Rəcəbov yaşadığı evin yaxınlığında işləyərkən Qonur Qafqaz ayısı qəflətən ona hücum edib. Çıxılmaz vəziyyətdə qalan sakin ayı ilə əlbəyaxa olub. Müxtəlif bədən xəsarətləri alan Fərman Rəcəbov ayının pəncəsindən qaçarkən özünü dərəyə atıb. Bir müddət dərədə qalan Fərman Rəcəbov sonra telefonla qardaşına zəng edib. Kənd sakinləri yaralını xilas edərək Qəbələ rayon Mərkəzi Xəstəxanasına gətiriblər. Xəstənin sol ayağında və qarın baş nahiyəsində çoxsaylı xəsarətlər olduğu üçün Bakı şəhərinə mərkəzi xəstəxanaya göndərilib.

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinqdə çıxışı zamanı qeyd edib ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabr bəyanatının 7-ci bəndinə əsasən qaçqınlar Dağlıq Qarabağ və ətraf ərazilərə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının himayəsində qayıtmalıdırlar. M.Zaxarova bildirib ki, müharibə ilə əlaqədar evlərini tərk etmiş ermənilər hazırda fəal şəkildə geri qayıdırlar. Rusiya üçün əsas məsələ isə (guya ki - red.) üçtərəfli bəyanatdakı həmin bəndin əvvəlki yaşayış yerlərini tərk etməyə məcbur olanların hamısına şamil edilməsidir.**



# "Biz məskunlaşmaya Xankəndidən başlamalıyıq"

## Həvva Məmmədova: "Kimin harda, hansı ünvanda yaşadığı bilinir"



**"Şəxsən mən Xankəndidə kooperativ ev növbəsindəydim"**

Şübhəsiz, Rusiya özünü "sülh göyərçini" kimi qələmə verməyə çalışır. Amma bunun belə olmadığı onsuz da bəllidir. Və ermənilərin də Qarabağa - əsasən Xankəndinə qayıdışındakı "fəallığı"nın da məhz Rusiya sülhməramlılarından qaynaqlandığı da məlumdur. Ermənistan əvvəllər də olduğu kimi Qarabağda erməni nüfuzunun yüksək olmasına çalışır. Bu, təbii halda mümkünsüz olduğundan süni üsullara əl atır. Bunlardan biri də erməni əhalisinə müxtəlif vədlər verərək Xankəndinə məcburən köçürülməsidir. İkincisi, M.Zaxarova hansı qaçqınlardan danışır? Dağlıq Qarabağ münaqişəsi zamanı ermənilər tərəfindən doğma yurdlarından didərgin salınmış azərbaycanlılar məcburi köçkünlərdir. Amma keçmiş məcburi köçkünlər. Çünki Azərbaycan ərazi bütövlüyünü artıq bərpa edib, ərazilərini işğaldan azad edib. Azərbaycanın öz vətəndaşlarını doğma torpaqlarına qaytarmaq üçün kiminsə köməyinə ehtiyacı yoxdur. Sadəcə, mənfur düşmən işğal etdiyi ərazilərin hər qarışını minaladığından məskunlaşma prosesi ləngiyir. Lakin bu da qısa zamanda həllini tapacaq. Məcburi köçkün adıyla vidalaşmış soydaşlarmız isə vaxtilə ermənilərin silahlı müdaxiləsi nəticəsində tərk etdikləri evlərinə qayıtmaqda qərarlıdır. Hətta bir çoxları "günü bu gün Xankəndinə qayıtmağa, öz evimizdə, mənzilimizdə yaşamağa hazırıq. Erməni kimdir ki, ondan çəkinək?! Qoy onlar bizdən çəkinsin", deyir. İllər öncə Xankəndi, Xocalı, Xocavənd, Hadrutda yaşamış qarabağlılar bu ərazilərin minalanmaya az məruz qaldığını iddia edərək evlərinə qayıtmaq üçün əngəl olmadığını deyirlər. Qarabağda məskunlaşmaya Xankəndidən başlamaq olarmı?

**Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, Xankəndidən sabiq millət vəkili Həvva Məmmədova "Şərq"ə açıqlamasında Ermənistanın məkrli siyasətindən əl çəkmədiyini bildirdi:**

- Ermənistan çalışır Xankəndidə erməni əhalisinin sayı çox olsun. Rusiya tərəfi də məlumat verir ki, guya, Xankəndinə 41 min erməni qayıdıb. Mən bu rəqəmlərə inanmıram. Ermənilər ora zorla köçürülür. Ermənilərə verilən vədlər yerinə yetirilmədiyi üçün əksəriyyəti təkrar ora qayıtmaq istəmir, zorla qaytarılanlar da geri qayıtmaq istəyirlər. Amma cənab Prezident İlham Əliyev həmişə deyir ki, Qarabağda yaşayan erməni əhalisi də Azərbaycan vətəndaşlarıdır. Azərbaycan Konstitusiyasına tabe olsunlar, Azərbaycan əhalisinin malik olduğu imkanlardan onlar da yararlansın. Ötən 28 ildə ermənilər Azərbaycan və azərbaycanlılar əleyhinə təbliğat apardılar ki, bizi öldürüblər, qırıblar, amma artıq dünya həqiqəti gördü. Azərbaycan Ordusu cənab Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdikcə ermənilərin hansı vandallıqlar törətdikləri hər kəsə məlum oldu. Ermənilər tərəfdən ilk zərbə alanlar məhz Xankəndi camaatı olub. Bir insan neçə dəfə köçkün düşər? Xankəndidən Xocalıya, Xocalıdan Ağdama, Ağdamdan Bakıya köçüb xankəndlilər. Sizə deyim ki, Xankəndinin, məsələn, "Kərpiçni" məhəlləsinin sakinləri tamamilə azərbaycanlılar idi. Amma ermənilərin məkrinə baxın ki, orada yaşayan azərbaycanlıları qeydiyyata almırdılar. Şəxsən mən Xankəndidə kooperativ mənzil növbəsindəydim. Mənim kimi bəlkə də minlərlə azərbaycanlı vardı, ev növbəsindəydilər. Amma mənzil verilmirdi, onları bezdirirdilər. Məsələn, həkim kimi təyinat alıb Xankəndinə işləməyə gələn azərbaycanlıları məqsədli şəkildə kənarlaşdırırdılar. 3 il qalıb işləməli olan şəxs il yarımdan sonra çıxıb gedirdi. Nə qədər ki, Dağlıq Qarabağda ermənilər rəhbər vəzifədəydi, əhalinin sayı heç vaxt düzgün aparılmırdı. Azərbaycanlılar az, ermənilərin sayı çox göstərilirdi. Sonra da məlum işğal faktı zamanı Dağlıq Qarabağda ermənilərin mümkün qədər çox məskunlaşdırılmasına çalışdılar, nəinki Ermənistandan, başqa ölkələrdən də erməni əhalisini ora köçürməyə başladılar. İndi biz nə etməliyik? Hesab edirəm ki, ən vacib məsələ Yuxarı Qarabağda, o cümlədən Xankəndidə yalnız 1988-ci ilədək yaşayanların məskunlaşdırılmasına nail olmaqdır. 1988-ci ilədək kimlər yaşayıbsa, onlar və onların ailə üzvləri ora köçürülməlidir. 1988-ci ildən sonra Xankəndiyə köçürülən ermənilər ordan

**"Mənim kimi minlərlə azərbaycanlı vardı ev növbəsində, amma verilmirdi, onları bezdirirdilər"**

çıxarılmalıdır. Düşünürəm ki, Yuxarı Qarabağ tamamilə Azərbaycan dövlətinin nəzarətinə keçdikdən, əhalinin təhlükəsizliyinə Azərbaycan Silahlı Qüvvələri cavabdeh olduqdan, dövlət strukturları formalaşdıqdan sonra bu məsələ də həllini tapacaq. Tezliklə bu olacaq. Çox az zaman qalıb. Biz məskunlaşmaya Xankəndidən başlamalıyıq. Xankəndidə mərkəzdəki evlərin, demək olar, hamısı salamatdır. Kimin harada, hansı ünvanda yaşadığı da bilinir. Azərbaycan dövləti də, keçmiş köçkünlərin Qarabağda məskunlaşmasını, doğma evlərinə qayıtmasını təmin edəcək. Cənab Prezident köçkünlərə mənzillərin verilməsi mərasimində iştirakı zamanı demişdi ki, siz burda müvəqqəti məskunlaşırsınız. Siz doğma torpaqlarınıza qayıdacaqsınız. Bunu heç kim unutmayıb, Prezidentin o sözləri də yaddan çıxmayıb.

**Məlahət Rzayeva**



## Şuşa qalası bərpa edilir

### Bütövlükdə işə 22 mütəxəssis cəlb olunub

**Şuşa qalasının bərpa işlərinə başlanılıb. Məlumata görə, bərpa prosesinə 22 mütəxəssis cəlb olunub.**

İlkin mərhələdə görülən işlərin gələn ayın sonlarına doğru yekunlaşacağı gözlənilir. İşlər yekunlaşdıqdan sonra növbəti mərhələdə daha geniş bərpaya başlanılacaq.

*Qeyd edək ki, Qarabağ xanı Pənahəli xan 1750-ci ildə Şuşa qalasının tikilməsi haqqında qərar verir və Qarabağ xanlığının mərkəzi buraya köçürülür. Qala bərpadan sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılır. Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın tikilməsində əsasən yerli daşlardan və əhəng-yumurta sarısı qarışığından istifadə edilib. Qalanın üç qapısı var. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir.*

# Müharibənin ilk günü şəhidliyə qovuşdu

## "O gün son dəfə səsini eşitdik"





**Yalnız buna layiq olanlar qəlblərdə taxt qura bilirlər. Həmin adamlar adətən hansısa bir amalla yaşayır və onun uğrunda hər şeydən, hətta canlarından da keçməyə hazır olurlar.**

Biz bunu Vətən müharibəsi dövründə aydın gördük. Minlərlə gəncimiz əlinə avtomat aldı, döyüşdü. 1998-ci il təvəllüdlü Manaf Bəhmənli də onlardan biridir. Manaf Yevlax şəhərində anadan olub və uşaqlıqdan məşəqqətlərə dözməyə məcbur qalıb.

**Qəhrəmanımızın bacısı Minə xanım qardaşının şərəfli və acı taleyi barədə "Şərq"ə danışıb:** "Məktəb illərində öz fəallığı ilə seçilirdi. 6-cı sinifdəykən Özəl Türk Liseyinə qəbul olundu. Amma maddi imkansızlığa görə oxuya bilmədi. 8-ci sinifdə Cümşüd Naxçıvanski adına hərbi liseyə qəbul olmaq istəsə də, atamız rəhmətə getdiyinə görə arzusu ürəyində qaldı.

Doqquzuncu sinifdən etibarən işləyirdi. 2015-ci ildə BDU-nun Mexanika-Riyaziyyat fakültəsində ali təhsil almağa başladı. Tələbəlik illərində də həmişə fəal olub. Ötən ilin iyul ayında əsgərliyə yollandı. Əvvəlcə Gəncədə, sonra isə Daşkəsəndə xidmət etdi. İkinci Qarabağ müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə qranatamyot atıcısı kimi vuruşub. Qardaşım müharibə başlayan gün, yəni sentyabrın 27-də şəhadətə qovuşdu.

Növbəti gün isə torpağa tapşırıldı. Ölümündən sonra "Vətən uğrunda" və "Hərbi xidmətə görə" medalları ilə təltif edildi.

Bizə və dostlarına qarşı həmişə diqqətcil olub. Hər kəsin dərdini öz dərdi bilib, insanlara əlindən gəldiyi qədər kömək edib. Manaf imanlı idi. Hətta xidməti dövründə də vaxtlı-vaxtında namaz qılırdı. Onu da deyim ki, sonuncu dəfə ayın 25-də danışdıq.

Anam da, mən də o gün son dəfə səsini eşitdik. "Özünüzü qoruyun, məndən narahat olmayın" sözləri hələ də qulağımdadır".

**Kənan**

# Şəhidin son sözləri...

## "Oğlumu qucaqlayıb, öpüb, bağrıma basa bilmədim"





Xüsusi təyinatlı İbrahim Vəlizadənin savaş hekayəsini həyat yoldaşı "Şərq"ə danışıb.

Vətən müharibəsinin şəhidlərindən yazmağa, onları sizə daha yaxından tanıtmağa davam edirik. İkinci Qarabağ savaşında döyüşüb, şəhadətə ucalan igidlərimizdən biri də Xüsusi Təyinatlı Qüvvələrin leytenantı İbrahim Vəlizadədir.

Qəhrəmanımız 1997-ci ilin 2-i aprel tarixində Naxçıvan MR Babək rayonunun Yarımca kəndində dünyaya göz açıb.

2003-cü ildə Yaqub Seyidov adına tam orta məktəbdə təhsilə başlayan İbrahim, 2011-ci ildə Heydər Əliyev adına hərbi liseyə qəbul olunub. 2014-cü ildə Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirir. Məzun olduqdan sonra təyinatla Tərtər rayon "N" saylı hərbi hissənin xüsusi təyinatlılar qrupuna göndərilib.

**"Şərq"ə şəhidimiz haqqında danışan, onun ömür-gün yoldaşı Billur xanım deyir ki, toylarında şadlıq evinə "Vağzalı" sədaları ilə deyil, himnimizlə gəliblər:** "Həm də bayrağımız asılmışdı. Bir il öncə oğlumuz dünyaya gəldi. Ona şəhid Fərid Əhmədovun adını verdi. İndi Fəridin 1 yaşı var. Amma atası onu sadəcə 10 gün görə bildi. Baxmayaraq ki, 2 il evli olduq, lakin 1 ay birlikdə yaşadıq. İbrahim Vətən müharibəsi başlayandan müxtəlif istiqamətlərdə vuruşub, Murov dağının alınmasında müstəsna rolu olub. Ora ilk bayraq sancanlardan biridir. Oktyabr ayının 1-də mədəsində qanaxma olduğu üçün hospitala gətirilib. Həkimlər deyiblər ki, vəziyyətin ağırdır. İbrahim isə qulaq asmayıb, gizirinin şəhid olduğunu, yoldaşları döyüşərkən hospitalda qala bilməyəcəyini söyləyib. Sonra savaşa qayıdıb. Həkimi deyir, onun dərmanlarını aparıb, avtobusda verib. Yenidən döyüşə dönəndə ayağından yaralanıb, yenə də xəstəxanaya gəlmək istəməyib. Deyib ki, torpaqlarınız azad olmayınca mənə dincəlmək, yatmaq haramdır. Oktyabr ayının 6-da Suqovuşan istiqamətində döyüş tapşırıqlarını yerinə yetirib, qayıdarkən pusquya düşüb, snayper gülləsinə tuş gəlib. Öncə qarın nahiyəsindən, sonra başından vurularaq qəhrəmancasına şəhid olub. Son dəfə bu sözləri təkrarlayır: "Oğlumu qucaqlayıb, öpüb, bağrıma basa bilmədim". Biz sağ olduğu xəbərinin gələcəyini ümid edirdik. Amma noyabr ayının 30-da, elə öz ad günündə Naxçıvan MR Babək rayonuna gətirilərək, izdihamla dəfn olundu".

**Şəhidin xanımı danışır ki, hospitalda olanda ona yazıb, oğlu Fəridə yaxşı baxmasını xahiş edib:** "O həm də uşaqla uşaq, böyüklə böyük kimi davranırdı. Ailəcanlı insan idi, valideynlərinə, mənə qarşı daim diqqətcil yanaşırdı. Kiminsə xətrinə dəyməzdi, yaxşılıqlar edərdi. Bir sözlə, onun kimi oğul, ata, həyat yoldaşı dünyaya gəlməyib, gəlməyəcək də. İbrahim əvəzolunmaz adam idi, onun yeri doldurulmazdı. Kimdənsə danışmazdı, hər kəsi özü kimi yaxşı bilərdi".

*Qeyd edək ki, İbrahim Vəlizadə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları, "3-cü dərəcəli Rəşadət" ordeni ilə təltif olunub.*

**Samirə Ərəbova**







# Ermənistanda "Qarabağ klanı" siyasətə qayıdır



"Bundan sonra hakimiyyətə kim gəlir-gəlsin, istər Koçaryan, istər Sarkisyan, istərsə də başqası, bizim üçün fərqi yoxdur"

Ermənistanda siyasi vəziyyət kifayət qədər xaotikdir. Biabırçı məğlubiyyət siyasi qüvvələr arasında ciddi çaxnaşma yaradıb. Keçmiş prezidentlər Rober Koçaryanla Serj Sarkisyanın böyük siyasətə qayıtmaları barədə səsləndirdikləri bəyanatlar onu deməyə əsas verir ki, siyasi boşluq yaranıb. Bir yandan isə mövcud iqtidarın əsas rəqibi Vazgen Manukyan revanşist iddialar səsləndirməkdədir. Elə isə doğrudanmı, Baş nazir Nikol Paşinyanın "siyasi vəfatı"na az qalıb? Potensial hakimiyyət çevrilişi nəticəsində nələr dəyişəcək? Bu suallar çoxlarını düşündürür.

**BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli Ermənistandakı daxili vəziyyəti "Şərq"ə qiymətləndirdi. Onun fikrincə, müxalifətin hakimiyyətə gəlməsi inandırıcı görünmür:** "Düzdür, siyasi qüvvələr indiki vəziyyətdən istifadə etməyə çalışırlar. Amma maraqlı məqam ondan ibarətdir ki, müxalif güclər lazımi qədər tərəfdar toplaya bilmirlər. Paşinyan isə bundan məharətlə yararlanır və məğlubiyyətin səbəbkarı kimi cəmiyyəti göstərir. Məsələn, on min fərarinin olduğunu deməklə bütün günahı vətəndaşların boynuna atmağa çalışır. İkinci bir tərəfdən, Koçaryanın Kremllə əlaqələrinin olmasına rəğmən, rəsmi Moskva da onun hakimiyyətə gəlməsində maraqlı deyil. Çünki müqavilə Paşinyanla imzalanıb. Və hazırkı baş nazir devriləcəyi təqdirdə, yeni "düyünlərin" meydana çıxacağı istisna deyil. Əslində Koçaryan özü də vəziyyəti düzəldə bilməyəcəyini bilir və bunu etiraf edir. Həmçinin proseslərə Qərbin müdaxilə imkanının olmaması Paşinyanın daha bir müddət hakimiyyətdə qalacağına işarədir".

*"Bizim üçün daha əlverişlisi Paşinyanın hakimiyyətdə qalmasıdır"*

*S.Məmmədlinin sözlərinə görə, Ermənistan üçün bircə çıxış yolu var:* "Türkiyə də israrla bildirir ki, Ermənistanın bizim tələblərimizə cavab verməsi və şərtlərimizə əməl etməsi ilk növbədə yerli cəmiyyətin inkişafına səbəb olacaq. Bunun üçün isə sərhədlər açılmalıdır. Paşinyan konstruktiv mövqe tutmaqdan başqa əlacının qalmadığını anlayır. Ən mühüm məsələ ondan ibarətdir ki, rus imperiyasının 300 ildən artıqdır Cənubi Qafqazda həyata keçirdiyi "Ermənistan layihəsi" iflasa uğradı. Özü də 44 günə. Bundan sonra hakimiyyətə kim gəlir-gəlsin, istər Koçaryan, istər Sarkisyan, istərsə də başqası, bizim üçün fərqi yoxdur. Ermənistan bir daha bərpa olunmayacaq. Sadəcə, bizim üçün daha əlverişlisi Paşinyanın hakimiyyətdə qalmasıdır. Hadisələri beləcə də bitirə bilərik. Başqasının hakimiyyətə gəlməsi "suyu bulandıracaq".

**Professor, həmçinin bildirdi ki, növbəti müharibə ehtimalı o qədər də çox deyil: "**Proseslər ziddiyətlərin çözülməsinə doğru gedir. Biz müxtəlif iqtisadi vasitələrlə düşmənə təzyiq etməkdəyik. Məsələn, Njdenn heykəlinin götürülməsi buna misaldır. ABŞ Rusiyanı sıxışdırmaqdadır. Deməli, Kreml çox "əl-qol ata bilməyəcək". Türkiyə isə öz nüfuzunu möhkəmləndirməkdədir. Bütün bunlardan məharətlə istifadə etsək, növbəti müharibə olmadan yarım qalan məsələləri də həll edə bilərik. Sadəcə qətiyyət göstərmək lazımdır. Rusiyanın nə isə diktə etməsinə icazə vermək olmaz. Əksinə, başa salmalıyıq ki, yerli əhali Qarabağa hələ də köçürülmədiyinə görə Moskva məsuliyyət daşıyır və günahkardır. Əgər hardasa boşluğa yol versək, ziddiyət çoxala bilər. Hərçənd, bu da o qədər təhlükəli deyil. Çünki Ermənistan daha Qarabağa əsgər göndərmir. Əksinə, biz oralarda postlar qururuq. İkincsi isə daxili vəziyyəti heç də yaxşı olmayan Rusiya nəticəsini bilmədiyi bir mübarizədə forpostuna min tonlarla humanitar yardım etməz. Bütün bunları nəzərə alaraq, diqqətli və qətiyyətli addımlar atmalıyıq. Əvvəlcə yollar açılmalı, sonra insanlar dədə-baba torpaqlarına köçməlidirlər. Belə olsa, orda bir nəfər də erməni qalmayacaq. Özləri avtomatik Qarabağı boşaldacaqlar və bir də "əli uzunluq" etməyəcəklər".

**Kənan Novruzov**



## Onlara yalnız faciə və fəlakət gətirəcək

### Ermənilərin bundan sonra bütün təxribat cəhdlərinin qarşısı mütləq şəkildə alınacaq

**Ermənistan müharibədən sonra da Qarabağda Azərbaycanın su resurslarına qarşı yenidən təxribat törətməyi planlaşdırır.**

Onlar Qarqarçay çayında qovşaq tikməyi planlaşdırır. Bildirilir ki, qovşağın tikilməsi Ermənistan hökuməti tərəfindən maliyyələşdiriləcək. Qeyd edək ki, müharibədən əvvəl də Ermənistan Qarabağda su resurslarının məhdudlaşdırılması üçün bir sıra təxribatlar törədib. **Mövzuya münasibət bildirən politoloq Nurlan Qələndərli "Şərq"ə açıqlamasında deyib ki, Ermənistanın təxribatçı fəaliyyəti təkcə hərbi və siyasi istiqamətləri əhatə etmir:** "Bu ölkənin uzun müddət davam edən təcavüzkar və işğalçı siyasətinin qurbanları təkcə soydaşlarımız deyil, həm də yaşı minilliklərlə ölçülən tarixi, dini və mədəni abidələrimiz olub. Bununla yanaşı, sirr deyil ki, işğalçı ölkə ekoloji terrorla da məşğul olub. Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə təbii resurslardan vəhşicəsinə istifadə edilməsi, transsərhəd çayların qəsdən çirkləndirilməsi, Qarabağda su resurslarının məhdudlaşdırılması kimi faktlar bu reallığın bariz ifadəsidir". Politoloq qeyd edib ki, Ermənistan siyasi rəhbərliyi və bu ölkədə rasional düşünməyi bacaran qüvvələr bu cür təxribatçı əməllərindən əl çəkməlidirlər: "44 günlük müharibə zamanı Azərbaycan işğalçı Ermənistanı acınacaqlı məğlubiyyətə uğratdı. Təcavüzkar dövlət bundan sonra da əgər təxribatçı əməllər törədərsə, "dəmir yumruq"la cəzalandırılacaq. Hərbi, siyasi və ya ekoloji - bütün təxribat cəhdlərinin qarşısı mütləq şəkildə alınacaq. Hesab edirəm ki, Ermənistan siyasi rəhbərliyində və bu ölkədə rasional düşünməyi bacaran qüvvələr onlar ilk növbədə təcavüzkar iddialardan, revanş cəhdlərindən, təxribat planlarından əl çəkməlidirlər. Çünki belə addımlar bu ölkə üçün yalnız faciə və fəlakətdən başqa heç nə vəd etmir".

**Aynurə Pənahqızı**

# Zaxarovanın bizə də mesajı var

### Fərhad Mehdiyev: "Ermənilər qayıtsalar da, hazır olsunlar ki, ora azərbaycanlılar da qayıdacaq"

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinqdə çıxış edib. O bildirib ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabr bəyanatının 7-ci bəndinə əsasən, qaçqınlar Dağlıq Qarabağ və ətraf ərazilərə BMT-nin qaçqınlar üzrə ali komissarının himayəsində qayıtmalıdırlar.

M.Zaxarovanın sözlərinə görə, müharibə ilə əlaqədar evlərini tərk etmiş ermənilər hazırda fəal şəkildə geri qayıdırlar: "Bizim üçün əsas məsələ üçtərəfli bəyanatdakı həmin bəndin əvvəlki yaşayış yerlərini tərk etməyə məcbur olanların hamısına şamil olmasıdır". Rusiya XİN rəsmisi həmçinin hərbi əsirlərin qaytarılması ilə bağlı məsələyə də toxunub: "Regiondakı Rusiya sülhməramlılarının xətti ilə də hərbi əsirlərin qaytarılması istiqamətində iş aparılır. Bir müddət öncə Rusiya sülhməramlı qüvvələrinin komandanının vasitəçiliyi ilə hərbi əsirlərin mübadiləsi baş tutub. Bir azərbaycanlı və beş erməni əsir evlərinə qaytarılıb. Ümumilikdə hesab edirik ki, bu problemin optimal həll variantı "hamının hamıya" prinsipidir. Bu, bizim mövqeyimizdir və bu barədə Rusiya prezidenti və xarici işlər naziri də bəyan edib".

**Politoloq Fərhad Mehdiyev "Şərq"ə açıqlamasında vurğulayıb ki, Zaxarovanın qaçqınların qayıtması ilə bağlı açıqlamasında müsbət məqamlar var:** "10 noyabr bəyanatındakı 8-ci bənddə qaçqınların geri qaytarılması nəzərdə tutulub. Bu şəxslər BMT-nin qaçqınlar üzrə ali komissarının himayəsi altında qayıtmalıdır. İlk zamanlar bizim tərəfimizdən belə bir narazılıqlar var idi ki, niyə yalnız erməni qaçqınlar geri qayıdır? Ola bilsin ki, bu açıqlama Zaxarovanın bizə mesajıdır: narahat olmayın, biz eyni zamanda azərbaycanlıların da qayıtmasını nəzərdə tuturuq. Zaxarovanın söylədikləri eyni zamanda Ermənistan tərəfinə də yönəlmiş mesaj ola bilər: ermənilər qayıtsalar da, hazır olsunlar ki, ora azərbaycanlılar da qayıdacaq".



Analitikin fikrincə, qaçqınlar geri döndükdən sonra onların təhlükəsizliyinə zəmanət verilməlidir:

"Düşünürəm ki, bununla bağlı da danışıqlar olacaq. Rusiya sülhməramlıları iki prosesi yerinə yetirmirlər. Birincisi, erməni hərbi birləşmələrindən silahları geri almırlar. Erməni silahlı birləşmələri qalıblar, bu da geri qayıdacaq azərbaycanlı qaçqınların həyatı üçün təhlükə mənbəyidir. İkincisi, mülki əhalinin də silahı var. Ona görə də geri dönəcək şəxslərin təhlükəsizliyi mütləq şəkildə təmin olunmalıdır. Bu da bölgədə rusiyalı sülhməramlıların sayını artırmaqla olmur. Təhlükəsizlik prosesi yerli ermənilərin silahsızlaşdırılması və erməni hərbi birləşmələrinin bölgədən çıxarılması ilə baş tutacaq".

*F.Mehdiyev düşünür ki, Rusiya sülhməramlıları bu günə kimi bir çox əsirin qaytarılmasında vasitəçilik edib:* "Rusiya bu prosesdə effektiv iştirak edə bilər. Əsirlərin axtarılması məsələsinə isə Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) baxır. Çünki onların mandatı var deyə, şübhələndikləri hər yerə baxıb, yoxlama apara bilirlər. Rusiya sülhməramlıların isə belə mandatı yoxdur. Lakin onlar əsirlərin "hamının hamıya" prinsipi ilə qaytarılmasında vasitəçiliyə malikdirlər. Təbii ki, əsirlərin hamısının qaytarılmasını rusların öhdəsinə buraxmaq olmaz. BQXK də bu işin içində olmalıdır".

**Yeganə Bayramova**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Müstəqil medianın inkişafına təkan verilməlidir

### Reklamla bağlı məsələlərə ciddi şəkildə aydınlıq gətirilməli, müəyyən mexanizmlər hazırlanmalıdır

Millət vəkili, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc media sahəsindəki mövcud problemlərdən danışıb. Deputat "media lantşaft"ı layihəsinin hazırlandığını və dövlət rəhbərliyinə təqdim edildiyini söyləyib. STM sədri vurğulayıb ki, mediada reklam bazarının zəif olması, kadr korpusunun başqa sahələrə keçməsi, ixtisaslaşmanın aparılmaması və digər problemlər hamını narahat edir. Parlament üzvü 2021-ci ilin iş planında KİV-lərə əsas yer ayırdıqlarını deyib. Millət vəkili mətbuatı zəif olan ölkənin özünü güclü saya bilmədiyini vurğulayıb:

”Vətən müharibəsində gördük ki, Ali Baş Komandan informasiya savaşını 3 dildə əsas beynəlxalq auditoriyalarda və platformalarda şəxsən özü apardı. Dövlət başçımızın dünyanın fərqli teleradio kanallarına verdiyi ardıcıl, məqsədyönlü, sistemli müsahibələrilə informasiya savaşını qazana bildik. Keçmişdə bizdə tez-tez ”media kapitanları” sözü işlədilirdi. O vaxt deyirdim ki, bizə informasiya müharibəsini aparmaq üçün ”media generalları” lazımdır. Müharibənin gedişində hərbi reportyorlarımızın canlı döyüş səhnələrini dünyaya yaymasını, fotoqrafların və jurnalistlərin, salnaməçilərin öndə olmasını təklif edirdik. Nə yaxşı, müstəqil qələm adamlarımız o boşluğu doldurdular”. Z.Oruc bəyan edib ki, STM medianın yeni simalarını yetişdirmək üçün ardıcıl proqramların, təlimlərin, təcrübə mübadilələrinin həyata keçirilməsini təklif edir: ”Bu addımları ata bilsək, 1990-cı illər mətbuatının qaynar mühitinə dönüləcək, kiminsə diktəsi ilə işləmək arxa plana keçəcək, peşəkar maraqlar önə çıxacaq. Məmurlar isə ”yalnız arzuladığımı oxuyum” deməyəcəklər”.

Ölkə mətbuatının müasir çağırışlar qarşısında olması reallığı mütəmadi gündəmə gətirilir və peşəkarlar tərəfindən müxtəlif təkliflər səsləndirilir. Lakin hesab edilir ki, medianın arzulanan yeni mərhələyə problemsiz adaptasiyası üçün vahid konsepsiya, xüsusi proqram hazırlanmalıdır.

**Məsələni ”Şərq”ə dəyərləndirən Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli deyib ki, problem illərdir gündəmə gətirilsə də, hələlik nəticə əldə etmək mümkün olmayıb. M.Ələsgərlinin sözlərinə görə, media sahəsindəki problemlər aradan qalxmalıdır:** ”Artıq bir neçə illərdir ki, media olan problemlər qabardılır. Həqiqətən də, ölkədə müstəqil medianın inkişafına təkan vermək lazımdır. Amma müstəqil medianın inkişafına təkan vermək dedikdə burada reklamla bağlı məsələlərə də aydınlıq gətirilməlidir. Yəni bu məsələ artıq bir səhmana salınmalıdır. Həqiqətən də Azərbaycanda KİV-lərin reklam dövriyyəsi heç bir standarta uyğun gəlmir. Çünki bizdən qat-qat zəif olan ölkələrdə, o cümlədən iqtisadiyyatı və büdcəsi aşağı olan dövlətlərdə reklam dövriyyəsi çox-çox yüksək rəqəmlərlə ifadə olunur. Azərbaycanda isə kifayət qədər aşağı rəqəmlərdir. Demək olar ki, yox səviyyəsindədir. Azərbaycan bu günləri inkişaf edən ölkələr sırasındadır. Büdcəmiz kifayət qədər yaxşıdır və iqtisadi inkişaf tempinə görə ən yaxşı yerləri tutur. Amma reklam dövriyyəsi ölkədəki bu iqtisadi inkişafa uyğun deyil. O baxımdan reklamla bağlı məsələlərə ciddi şəkildə aydınlıq gətirilməli, müəyyən mexanizmlər hazırlanmalıdır”.

*Ekspertlər ümid edir ki, media strukturlaşması, maliyyə problemlərinin həlli, reklamla bağlı məsələlər yüksək səviyyədə həll olunacaq*

*M.Ələsgərli ixtisaslaşma məsələsinə gəlincə, qeyd edib ki, bu günləri jurnalistika sahəsində ixtisaslaşmaya çox ehtiyac var:* ”Azərbaycan bölgədə söz sahibi olan bir dövlətdir. Bizim media da ona uyğun olmalıdır. İlk növbədə media Azərbaycanın haqq səsini bütün dünyaya çatdırmağı bacarmalıdır. Bununla bağlı media təhsilində də ciddi şəkildə dəyişikliklər olmalıdır. Təbii ki, ilk növbədə müasir dövrün çağırışlarına cavab verməlidir. Hesab edirik ki, bu problemlərin aradan qaldırması üçün ciddi şəkildə addımlar atılacaq. Bildiyimiz kimi, bu günləri Azərbaycan da islahatlar dalğası gedir və bu medianı da əhatə edir. Bu baxımdan media strukturlaşması, maliyyə problemlərinin həlli, reklamla bağlı məsələlər yüksək səviyyədə həll olunacaq. Hesab edirik ki, bu da bizim müstəqil kütləvi informasiya vasitələrinin inkişafına mükəmməl şəkildə dəstək olacaq”.

**Tanınmış jurnalist Azər Həsrət ”Şərq”ə açıqlamasında istənilən halda medianın fəaliyyətinin optimallaşdırılması istiqamətində atılan hər biri addımı şəxsən dəstəklədiyini qeyd edib.** Onun sözlərinə görə, əgər həqiqətən də, ölkədə normal media müstəvisi qurulmasını istəyənlər varsa, o zaman ayrı seçkiliyə son qoymalıdırlar: ”İllərdir ki, doğrudan da normal dünya standartlarına uyğun media mühitinin formalaşdırılması üçün cəfakeşlik etmişik. Hətta bir sıra təkliflər vermişik. Amma çox təəssüflər olsun ki, indiyədək ortada heç bir müsbət nəticə olmayıb. Biz ümid edirik ki, ölkədə aparılan kadr islahatları vəziyyəti dəyişəcək. Nəticədə çox sürətli dəyişikliklər baş verəcək. İnsanlara, xüsusən də medianın önündə gedən adamlara münasibət ”bizimki-sizinki”, ”bizdən olan-bizdən olmayan” müstəvisi üzərində qurulmayacaq. Təbiidir ki, belə olmasa hörmətli dostumuz Zahid Oruc nə cür faydalı təklif versə, belə o uğursuzluğa düçar olacaq. Belə düşünürəm ki, əgər kimlərsə, həqiqətən də ölkədə normal media müstəvisi qurulmasında maraqlıdırsa, ayrıseçkiliyə son qoymalıdırlar. Medianın həqiqətən də normallaşması, özəlliklə də dünya standartlarına uyğunlaşdırılması istiqamətində uyğun adamlarla müzakirələr aparılmalıdırlar. Yoxsa ki, hərə özündən bir təkliflər paketi hazırlayacaq. Onu göndərəcək və bir müddət gündəmə gələcək, müzakirəsi gedəcək. Ondan sonra yenə də heç nə dəyişməyəcək. Nəticədə nə olacaq? Azərbaycan mediası itirəcək”.

*Azər Həsrət qeyd edib ki, illərdir ki, reklam məsələsi müzakirə edilir:* ”Reklam Şurası qurulması ilə bağlı Mətbuat Şurası daxilində dəfələrlə müzakirələr keçirmişik. Dövlətə, Prezident Administrasiyasına o təklifləri göndərmişik ki, Reklam Şurası qurulsun. Qəzetlərə ümumiyyətlə, mediaya reklam ədalətli bir şəkildə bölüşdürülsün. Çünki Azərbaycanda sirr deyil ki, xüsusən də, qəzetlərimiz reklam məsələsində çox əziyyət çəkirlər. Düzdür, tanışlıqla, tapşırıqla bu sənin adamındır deyə qəzetlərə reklam verilir. Amma biz isə deyirdik ki, reklam şurası qurulsun. Türkiyədə bunun bənzəri var. Şura ədalətli bir şəkildə qəzetlərin tirajını, nüfuz dairəsini və sair nəzərə alaraq reklam bölüşdürür. Hesab edirəm ki, reklam şurası olacağı təqdirdə doğrudan da cəmiyyətə faydalı media xidməti göstərən qəzetlər normal reklam ala biləcəklər”.

**”Lent.az” saytının baş redaktoru, Əməkdar jurnalist Qabil Abbasoğlu ”Şərq”ə açıqlamasında vurğulayıb ki, mətbuatı düşdüyü vəziyyətdən çıxarmaq üçün deputat Zahid Orucun ”müstəqil qələm adamları” ifadəsinin üzərində dayanmaq lazımdır. Baş redaktor bildirib ki, mətbuat nümayəndələrinin müstəqilliyi media sahəsini tənzimləməyin ən effektiv, uzunömürlü və davamlı yoludur:** ”Dövlətin bu sahədə görə biləcəyi iş mətbuatın iqtisadi azadlığının təmin olunması, çap mətbuatında yayım sektorunun fəaliyyətinin optimallaşdırılması və bütövlükdə xəbər siyasətinin, yaradıcılığın çərçivəsinin genişləndirilməsidir. Jurnalistlərin fəaliyyət azadlığı qanunvericiliyə uyğun maksimum təmin olunmalıdır. Əgər bunlar öz həllini taparsa, medianın böhranlı mərhələsini adlamaq mümkündür”.

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Azərbaycan 100 milyard dollardan artıq gəlir əldə edəcək



Vüqar Bayramov: "Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfə verəcək layihələrdən hesab olunur"

**Fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış edib. Toplantıda Azərbaycan da daxil olmaqla 18 ölkənin nazirləri və digər yüksək vəzifəli nümayəndələri iştirak ediblər.**

Cənub Qaz Dəhlizi çoxtərəfli əməkdaşlığın başlanğıcı, enerji sektorunda görülən işlərin zirvəsi olaraq Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qazandığı nüfuzun təsdiqidir.

Ümumilikdə, Cənub Qaz Dəhlizinin icrası Azərbaycanın zəngin qaz ehtiyatlarının Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz formada çatdırılmasına geniş imkanlar açacaq. Sözügedən toplantı ötən bir ilin yekunlarının və yeni muəyyənləşdirilən prioritetlərin təqdimatıdır.

**Görüşün əhəmiyyətini "Şərq"ə şərh edən millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov qeyd edib ki, Cənub Qaz Dəhlizi bütövlükdə Avropa qitəsi üçün vacib təşəbbüslərdən hesab olunur:**

"Cənub Qaz Dəhlizinin reallaşması birabaşa cənab Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün oldu. Dünən layihə müzakirə edilən zaman fərqli yanaşmalar var idi.

Məsələn, layihənin maliyyələşdirilməsi və keçəcəyi coğrafi ərazilər müzakirə predmeti idi. Cənub Qaz Dəhlizi Azərbaycan mavi qazının Türkiyə və Avropaya çatdırılmasını təmin edir.

Məşvərət Şurasının iclası illik olaraq həyata keçirilən fəaliyyətlərin müzakirəsi və sistemli şəkildə reallaşdırılması baxımından vacibdir.

İclas birbaşa Azərbaycanın rəhbərliyi ilə həyata keçirilib. Bu da ondan xəbər verir ki, Məşvərət Şurası indiyə qədər TANAP və TAP-ın inşası, mavi qazın nəqli ilə bağlı məsələlərin birbaşa və yerində müzakirə edilməsinə imkan verəcək".

*V.Bayramov qeyd edib ki, Cənub Qaz Dəhlizi illik olaraq Türkiyə bazarına 7 milyard kubmetrdən artıq mavi qazın nəql edilməsini nəzərdə tutur:* "Eyni zamanda TAP kəməri vasitəsi ilə Avropaya birinci mərhələdə 10, ikinci mərhələdə 20 milyard kubmetr mavi qaz nəql ediləcək. Bütövlükdə Cənub Qaz Dəhlizinin ötürmə qabiliyyəti 31.5 milyard kubmetrdir.

Artıq 2020-ci il dekabrın sonunda Azərbaycan mavi qazı Avropaya daxil oldu. Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfə verəcək layihələrdən hesab olunur".

*Parlament üzvünün fikrincə, Cənub Qaz Dəhlizi Azərbaycanın coğrafi mövqeyinin daha da möhkəmlənməsinə imkan yaradır:* "Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsilə 100 milyard dollardan artıq gəlir əldə edəcəyi proqnozlaşdırılır. Bu layihə gələcəkdə region və qitə üçün kifayət qədər əhəmiyyətlidir".

**Yeganə Bayramova**

## Nazirliyin mətbuat katibi işdən çıxdı



**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat katibi Günel Gözəlova işdən çıxıb.**

Bu barədə o, özü məlumat verib.

"Əziz dostlarım, həmkarlarım! Bu gündən artıq illərdir çalışdığım iş yerimdən ayrılmaq qərarı aldım və rica edirəm, heç kəs səbəb axtarmasın, çünki bu dünyada insan həyatı belə, əbədi deyil. Keçmişə hörmət, gələcəyə inamla davam etməliyik hər bir yolun sonunda. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və kollektivi bundan sonra da mənim üçün doğma olacaq!" - deyə sözçü qeyd edib.

## Türkiyədə peyvənd edilənlərin sayı 3,5 milyonu ötüb



**Türkiyədə yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı peyvənd edilənlərin sayı 3,5 milyonu ötüb. APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə Türkiyənin səhiyyə naziri Fəxrəddin Qoca "Twitter"də bildirib.**

Xatırladaq ki, Türkiyədə koronavirusa qarşı kütləvi vaksinasiya prosesinə başlanılıb. İlk olaraq tibb işçilərinin peyvəndlənməsinə start verilib. Tibb işçilərindən sonra yaşlı insanlar peyvənd olunacaq. Türkiyədə vaksinasiya prosesində Çinin "Sinovak" əczaçılıq korporasiyası tərəfindən hazırlanmış "Koronavak" inaktiv peyvəndindən istifadə olunur.



## Saatlıda rüşvət alan vəzifəli şəxs həbs edilib

**"Saatlı Gənclər Evi" sosial xidmət müəssisəsinin direktoru vəzifəsində işləmiş Quliyev Əzizağa Kişibala oğlunun qanunsuz hərəkətləri barədə vətəndaşın müraciəti əsasında Saatlı rayon prokurorluğunda araşdırma aparılıb.**

Rayon Prokurorluğundan verilən məlumata görə, aparılmış araşdırmalarla Əzizağa Quliyevin "Saatlı Gənclər Evi" sosial xidmət müəssisəsinin direktoru vəzifəsində işləyən zaman, Matan Məmmədovanı xadimə işinə qəbul etmək müqabilində 1000 manat, qızı Jalə Həvəskarini isə kompyuter üzrə mütəxəssis ştatına işə qəbul etmək üçün 2000 manat məbləğində pulu rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Saatlı rayon prokurorluğunda cinayət işi başlanmaqla, Quliyev Əzizağa Kişibala oğlu Cinayət Məcəlləsinin 311.3.2-ci (rüşvət alma təkrar törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# 1 manat məsələsi hər kəsə təsir edən qərardır

"Bu, pis örnəkdir, hələlik insanlara birbaşa təsir etmədiyinə görə məsələ ciddi müzakirə edilmir"




**Pandemiyanın yaratdığı gərgin vəziyyət öz nəticəsini indi daha çox büruzə verir. Kimisi işsizlikdən əziyyət çəkir, kimisi də xərclərini qarşılaya bilmədiyi üçün çıxılmaz vəziyyətə düşür. Əhalinin önəm verdiyi əsas xərclərdən biri də kommunal ödənişlərdir.**

"Milliön" müştəri xidmətlərinin rəhbəri Ülviyyə Əfəndiyeva "Xəzər" televiziyasının "Birinci studiya" verilişində çıxış edib. O bildirib ki, ödəmə terminallarından "Azərişığ"ın qeyri-əhali ödənişlərinə görə əlavə 1 manat tutulacaq: "Bu, xəbərdarlıq kimi bütün terminalların, aparatların üzərində həmin xidmətə daxil olarkən monitorda qeyd olunub. Qərar "Milliön" və "Azərişıq" arasında qarşılıqlı razılaşma əsasında qəbul edilib və yalnız "Milliön" köşklərinə şamil olunmur. Ümumi olaraq "Azərişıq" tərəfindən tətbiq olunan razılaşma əsasında digər şirkətlərə də şamil edilib".

Bu qərar qeyri-əhali ödənişlərinə şamil edilsə də, cəmiyyət tərəfindən narazılıq qarşılanıb. Sosial şəbəkələrdə insanlar deyir ki, bu gün qeyri-əhali qrupuna aid edilən qərar, çox keçməz ki, əhali kateqoriyasına da daxil edilə bilər.

Görəsən, "millət necə tərac olur olsun, nə işim var?" deyəcəklər, yoxsa vəziyyəti fərqli yöndə dəyişəcəklər?

**Əhalinin narahatlığına aydınlıq gətirən iqtisadçı-ekspert Natiq Cəfərlinin sözlərinə görə, atılan addım qaydalara ziddir. Ölkədə rüsum yalnız Tarif Şurası, Nazirlər Kabineti və parlament tərəfindən tətbiq edilə bilər:** "Bu, pis örnəkdir. Hələlik insanlara birbaşa təsir etmədiyinə görə məsələ ciddi müzakirə edilmir. Amma məncə, müzakirə olunmalı məsələdir. Zatən həm qeyri-əhali qrupuna daxil olan şirkətlər, həm hüquqi şəxslər, həm də VÖEN-lə çalışan şəxslərin xərclərinin artımının son ödəyicisi biz istehlakçılarıq. Onların xərcləri artdıqca, xidmətlərinin və satdığı məhsulların dəyəri də yüksəlir. Ona görə də bu, hamını maraqlandıran və hər kəsə təsir edən qərardır".

*Ekspert dünya təcrübəsində mobil tətbiqlərin geniş yayıldığına görə kommunal ödənişlərin avtomatik olaraq həyata keçirildiyini bildirib:* "Bir çox ölkələrdə örnəklər var ki, kredit kartı ilə bağlı hesablar olur. Öncədən imzalanan müqavilə əsasında hesabdan vəsait silinməsinə və ödənişlər edilməsinə imkan verilir. O demək deyil ki, kim necə istədi ödəniş platformalarında rüsum tətbiq edə bilər?!".

**Aygün Tahirqızı**

# 40 gün 96 saat

## İkinci Qarabağ savaşıyla elə bir həqiqətə vardıq ki, məncə, cənnətlə müjdələndik...



**Aynurə Alıyeva, Bakı şəhəri, Xətai rayonu, 221 saylı tam orta məktəbin fizika müəllimi**

Hələ İkinci Qarabağ savaşı başlamadan öncə, hər bir azərbaycanlı kimi mən də inanırdım ki, savaş başlayacağı təqdirdə biz mütləq qalib gələcəyik. Bunun üçün bütün imkanlarımız var idi və ən əsası Ali Baş Komandan dediyi kimi, haqq bizim tərəfimizdəydi. Bu haqq savaşımızda xalqımızın möhtəşəm birlik nümayiş etdirməsi, ordumuzun rəşadəti, Ali Baş Komandanın sarsılmaz iradəsi sözlə ifadə olunmaz dərəcədə qururvericiydi.

Lakin mən savaşın başladığı və bitdiyi müddət, yəni 44 günlə bağlı təəssüratlarımı bölüşmək istəyirəm. Niyə məhz 44, niyə 35 və yaxud 54 gün yox. Mənə elə gəlir ki, burda bir hikmət var. Ümumiyyətlə, 40 gün mövzusu bizim nağıllarda, ədəbiyyatımızda, dinimizdə və məişətimizdə mistik bir mahiyyət daşıyır. Məişətimizdə 40 gün və 40 gecə toy ənənəsi, ədəbiyyatımızda 40-cı otağın vahiməsi, dinimizdə ruhun 40 günə təhvil-təslimi və sair və ilaxır. Ümumiyyətlə, nədəndisə, xalq yaddaşında şər qüvvələr 40 gün müddətində öz varlıqlarını gizlədə və yaxud qoruya bilərlər. Demək ki, düşmən məhz 40 gününün tamamında tamamilə məğlub olduğunu dərk edib. Lakin məğlubiyyətini etiraf etməyin mənasız təəddüdləri 96 saat yəni 4 gün sürüb. Birinin mənfi mənada dərsini vermək istəyəndə deyərlər ki: ”Sən öl, sənə toy tutaram”. Ordumuz nəinki sözün məcazi, elə əsl mənasında düşmənə 40 gün 40 gecə toy tutdu. Bunu sübut edən tarixi görüntülər və kifayət qədər video salnamə var. Əlbəttə ki, düşmən mahiyyət etibarilə bizim üçün nağıllarımızdakı 40-cı otaqda pusquda duran div deyildi. Lakin etiraf etmək lazımdır ki, düşmənin arxasında elə mahiyyət etibarilə 40-cı otaqda özünü yatmış kimi göstərən nəinki div, divlər durmuşdu. Lakin bu dəfə onların planları alınmadı. Çünki xalqımız birləşərək Ali Baş Komandanın dəmir yumruğuna çevrildi. Bu dəmir yumruq isə nəinki özünü div hesab edənlərin, elə div olanların da başını əzməyə qadirdir. İnanıram ki, 44-günlük İkinci Qarabağ savaşı xalqımızın real həyatında, eləcə də real aləmində də dəyişikliklərə səbəb olacaq. Yəni mifik təsəvvürümüzdəki illərdir formalaşmış mistik və vahiməli, keçilməsi mümkün olmayan 40-cı otaq, 40-cı qapı, 40-cı pillə mifi dəyişəcək. Ancaq onu da unutmaq lazım deyil ki, mənəvi dünyamızda haqq aşiqləri məhz 40 gün, 40 gecə yol qət etdikdən sonra həqiqətə varıblar. Bilmirəm, ola bilsin, təkrarçılığa yol verirəm, ancaq bir daha vurğulayım ki, 44 günlük İkinci Qarabağ savaşıyla elə bir həqiqətə vardıq ki, məncə, cənnətlə müjdələndik. Bəli, təkcə mübarək şəhidlərimiz deyil, haqq və ədalət uğrunda mübarizə apararaq öz oğullarını şəhid verən bir xalq da cənnəti haqq edib. Heç kimə sirr deyil ki, düşmən əzəli və əbədi torpaqlarımıza iddia etdiyi kimi (çətin bundan sonra iddia edə) maddi və mənəvi dəyərlərimizə də iddia edir. Odur ki, mənəvi dəyərlərimizdə yer alan 40 rəqəmini də yəqin ki, özününküləşdiriblər. Eybi yox, onlara 4 gün də əlavə verib 44 günlük bir labirintə böyük xülyaların elə saldıq ki, qiyamətə qədər çıxa bilməyəcəklər. İnanıram ki, 2020-ci ilin 8 noyabr tarixindən sonra hayestan xalq nağılları ”Biri vardı, biri yoxdu, 44 gün vardı” girişi ilə başlayacaq. Nə üçün? Çünki Qarabağ Azərbaycandır!





## Bakı bulvarında intihara cəhd olub



**Bakı bulvarında bir nəfər intihara cəhd edib.**

Fövqəladə Hallar Nazirliyindən “Şərq”ə verilən məlumata görə, ”112” qaynar telefon xəttinə Bakı şəhəri, Səbail rayonu ərazisində yerləşən Dənizkənarı Milli Parkda bir nəfərin özünü dənizə atması barədə məlumat daxil olub.

Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin müvafiq xilasetmə qüvvələri vətəndaşı xilas edərək aidiyyəti üzrə təhvil veriblər.

## Dəniz quldurlarının girov götürdüyü 15 türk dənizçi xilas edildi

### Onların vəziyyəti yaxşıdır, 2 gün ərzində Türkiyəyə gətiriləcəklər




**Nigeriya sahillərində dəniz quldurlarının girov götürdüyü 15 türk dənizçi xilas edilib.**

Bu barədə Boden Dənizçilik şirkətinin baş direktoru Levent Karsan məlumat verib. Onun sözlərinə görə, dənizçilərin vəziyyəti yaxşıdır və hazırda Nigeriyadadırlar. 1-2 gün ərzində Türkiyəyə gətiriləcəklər.

Xatırladaq ki, ötən ayın sonları Qvineya körfəzində ”Mozart” gəmisi dəniz quldurları tərəfindən qaçırılıb. Gəmidə olan 19 nəfərdən 15-i girov götürülüb, 1 nəfər öldürülüb, 3 nəfər isə gəmidə qalıb. Öldürülən azərbaycanlı mühəndis Fərman İsmayılovun cənazəsi Azərbaycana göndərilərək doğulduğu Siyəzən rayonunda dəfn edilib.

## Türkiyədə dəhşətli "pişik koronavirusu" yayılır

### Xəstəlik Eskişehirdə küçə pişiklərində müəyyən edilib



**Türkiyədə insana keçməyən, yoluxucu ”pişik koronavirusu” kimi tanınan Pişik İnfeksion Peritoniti (FIP) aşkarlanıb.**

Medicina xəbər verir ki, xəstəlik Eskişehirdə küçə pişiklərində müəyyən edilib.

Müalicə olunmayan sözügedən xəstəlik səbəbindən epidemiya narahatlığı yaşanır. Heyvan sığınacaqlarında və xüsusi klinikalarda karantin otaqları hazırlanıb.

**Baytar həkim Turqay Cinkaya bildirib ki, bu ölümcül xəstəliyin yayılmasının qarşısını almaq üçün xəstələnən və xəstələndiyindən şübhələnilən küçə pişikləri karantinə alınmalı və onların sağlam pişiklərlə təmasları kəsilməlidir.**

Simptomları inkişaf mərhələsindəki pişiklərdə inkişafdan qalma, çəkinin azalması, əsəb və koordinasiya pozuntuları, yüksək temperatur olan bu yolxucu xəstəliyin 10 gündə pişikləri öldürdüyü bildirilir. Veterinar qeyd edib ki, virusun insanlara keçməsi müşahidə olunmasa da, belə bir ehtimal var.

O, evlərində pişik saxlayanlara tövsiyə edib ki, ev heyvanlarını küçə pişikləri ilə təmasdan çəkindirsinlər.

# Məktəblərdə hələ də savadsız müəllimlərin sayı 70 faizdən çoxdur

## Ona görə də mütləq istər direktor olsun, istərsə də müəllim imtahandan keçməlidir



Fevralın 10-dan start verilən direktorların işə qəbulu üzrə müsabiqənin elektron sənəd qəbulu mərhələsində 900-dən çox namizəd qeydiyyatdan keçib. Təhsil Nazirliyindən verilən məlumata görə, 2020-ci ilin 28 sentyabr - 5 oktyabr tarixlərində keçirilən elektron sənəd qəbulu mərhələsinin nəticələri nəzərə alınmaqla, ümumilikdə 4200-dən çox namizəd direktor olmaq üçün müraciət edib. Fevral ayının 19-da direktorların işə qəbulu üzrə ilk elektron sınaq imtahanı keçiriləcək.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan təhsil eksperti Nabatəli Qulamoğlu vurğulayıb ki, müəllimlərin işə qəbulu sistemi keçmiş təhsil naziri Mikayıl Cabbarovun vaxtından tətbiq edilməyə başlayıb.** Ekspertin sözlərinə görə, bu da müəllim və direktorların işə qəbulunda müəyyən qədər yeniliklər yaradıb: ”2016-cı ildə qəbul edilən yeni qərara əsasən, keçmiş Təhsil naziri Mikayıl Cabbarov yaxşı müəllimləri az da olsa toplaya bildi. Halbuki, hələ də sertifikasiya qalır. Yəni savadsız müəllimlər məktəblərdə kifayət qədər doludur. Deyərdim ki, savadsız müəllimlərin sayı məktəblərdə hələ də 70 faizdən çoxdur”.

*Təhsil eksperti qeyd edib ki, etiraf etmək lazımdır ki, Mikayıl Cabbarov təhsil sistemində müəyyən qədər dönüş yaratdı:* ”2016-cı ildə müəllimlərdən sonra direktorların işə qəbuluna dair əmr imzaladı. İmzaladığı əmrlə əvvəl müəllimlər imtahan verirdi. Təbii ki, imtahana sənəd vermək üçün də müəyyən şərtlər qoyulurdu. Məsələn, əgər 5 il stajı varsa, əlbəttə, onu direktor təyin eləmək olar. İmtahanın birinci mərhələsində təşkilatçılığa dair suallar olurdu. Vəzifəsini icra eləmək üçün onların potensialının olub-olmaması yoxlanılırdı. Lakin sonralar müsahibə mərhələsində icra başçıları işə qoşuldular. İmtahan vermək istəyənlər Təhsil Şöbəsinin icazəsi ilə gəlməli idi. Bu da təbii ki, korrupsiya hallarına şərait yaradırdı. 2018-ci ildə bu qərara yenidən dəyişikliklər edildi. Ümumiyyətlə, hesab edirəm ki, direktor təyin olunmamalıdır”.

**Aynurə Pənahqızı**



# "Test necə 40 manata enə bildi?"

"TƏBİB testlərin qiymətini əhalinin müxtəlif təbəqəsinə uyğun tənzimləməlidir"

Vətəndaşlar zaman-zaman koronavirus testlərinin qiymətinin bahalığından şikayət edirlər. Maddi gəliri aşağı olan insanların COVİD testlərindən keçməsi qeyri-mümkündür.

Millət vəkili Əli Məsimli də Milli Məclisin iclasında bu məsələdən söz açaraq deyib ki, koronavirus üçün testlərin tətbiq dairəsi genişləndirilməlidir: "Test qiymətləri də 2-3 dəfə aşağı salınmalıdır. Həmçinin bəzi dərmanların qiymətləri də endirilməlidir".

**Deputanın fikirlərini "Şərq"ə şərh edən iqtisadçı-ekspert Fuad İbrahimov koronavirus infeksiyasının ümumbəşəri bəla olduğunu söyləyib:** "İstənilən ölkə testlərin tətbiqi ilə bağlı müəyyən tələbləri ödəməlidir. Burda differensial yanaşma olmalıdır. Bir ildən artıqdır pandemiya ölkəmizdə və dünyada hökm sürür.

Ona görə TƏBİB sahələr üzrə testlərin qiymətini əhalinin müxtəlif təbəqəsinə uyğun tənzimləməlidir. Kimsə növbə gözləmədən, dərhal arayış almalıdırsa, testin pulunu ödəyə bilir.

Lakin infeksiyaya yoluxmuş ailələr təcili yardım çağırırlar, bu zaman ləngimələr olur. Hörmətli deputat Əli Məsimlinin fikirləri ilə razıyam. Ən azından qonşu ölkələrdə testin qiymətinin aşağı olduğunu görürük. Bizdə isə əvvəllər 100 manatdan artıq idi, sonra bir az aşağı düşdü.

Test necə 100-dən 40 manata enə bildi? Görünür, əvvəlki dövrdə "haqq" götürən qüvvələr olub, amma olmamalıdır, Azərbaycana yaraşmır. Çünki cənab prezidentin başçılığı ilə həyata keçirilən sosial layihələr, vətəndaşlara göstərilən qayğı ortadadır. Belə bir zamanda bu kimi addımlar tələblərə cavab vermir".

**Samirə Ərəbova**

# "Xanımımla Xankəndidə yaşamaq istəyirik"

## Araşdırmaçı jurnalist Sərxan Carçının müraciətinə müsbət cavab verilib



**"CARÇI" Araşdırma Mərkəzinin rəhbəri, araşdırmaçı-jurnalist Sərxan Carçı işğaldan azad olunan ərazilərdə yaşamaq üçün Prezident Administrasiyasına müraciət edib.**

Onun bu istəyinə hazırda məskunlaşdığı Xətai Rayon İcra Hakimiyyətindən cavab gəlib, müraciətin qeydə alındığı bildirilib.

Biz də həmkarımızı təşəbbüsündən dolayı söhbətə çəkdik. S.Carçı "Şərq"ə açıqlamasında Prezident İlham Əliyevə və onun köməkçisi Hikmət Hacıyevə müraciət etdiyini söylədi: "Yazdım ki, xanımımla birgə orda yaşamağa və işləməyə hazırıq. Hətta biz ev də istəmirik. Sadəcə yerləşməyimiz təmin edilsin. Sonra müsbət cavab gəldi.

Feysbukda da status yazıb, xahiş etdim ki, könüllü müraciətlərə ciddi yanaşılsın, düzgün bölüşdürülmə siyasəti aparılsın. Həm də məlum paylaşımımın ardınca bir xeyli insan necə müraciət etdiyimi soruşdu.

Sanki bir kampaniyaya çevrildi. Onu da deyim ki, Xankəndidə və bizə göstəriləcək digər ərazilərdə yaşamaq istəyərik.

Lakin xüsusilə Xankəndini vurğuladım. Çünki ermənilərlə say bərabərliyi tənzimlənməli, orda bizim əhalinin sayı artmalıdır. Ona görə düşmənlə üz-üzə yaşamağa da hazır olduğumu qeyd etdim".

**Samirə**



# Suriya, İraqda döyüşən azərbaycanlılar geri qaytarılacaq

## Mahmud Hacıyev: "Onların hamısı bilir ki, cinayət tərkibli əməllər törədiblər və Azərbaycana gəlsələr, azadlıqdan məhrum ediləcəklər"

Suriya və İraqa döyüşmək üçün gedən azərbaycanlıların qaytarılması gözlənilir. Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı məlumat verib: "Onların geri qaytarılması məsələsi ilə aidiyyəti qurumlar məşğuldurlar".

Onun sözlərinə görə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi isə bununla bağlı öz üzərinə düşən vəzifəni yerinə yetirir.

M.Qurbanlı onu da qeyd edib ki, Suriyaya, İraqa döyüşməyə gedənlər üç qrupa bölünür: müəyyən maddi şirnikləndirməyə inananlar, macəra axtarışında olanlar və orda baş verənlərin, təəssüf ki, cihad olduğuna inananlar.

**Sözügedən şəxslərin geri qayıdacağına inanmadığını deyən sabiq polis rəisi Mahmud Hacıyev "Şərq"ə bildirib ki, müvafiq qurumlar bu sahədə iş görsələr də, həmin döyüşçülər ölkəyə gəlməyəcəklər:** "Həmin şəxslər geri qayıtmaq istəməsələr, aidiyyəti qurumlar nə edəcək? Ona görə də bu prosesin hüquqi qüvvəsi yoxdur. Bir var ki, həmin şəxslərdən kimsə könüllü şəkildə geri qayıtsın. Lakin inanmıram ki, belə bir hal baş versin. Çünki onların hamısı bilir ki, cinayət tərkibli əməllər törədiblər və Azərbaycana gəlsələr, azadlıqdan məhrum ediləcəklər".

*M.Hacıyev qeyd edib ki, Suriya və İraqda döyüşən azərbaycanlılar bir halda geri qaytarıla bilər:* "Məsələn, həmin insanlar getdikləri ölkələrdə cinayət əməli törədib, həbs ediliblərsə. Bu zaman iki dövlət arasında hüquqi müqavilə varsa, danışıqlar gedə bilər. Müəyyən qurumların məsələ ilə məşğul olması absurddur. İnanmıram ki, kimsə könüllü olaraq qayıdıb özünü 20 il azadlıqdan məhrum etsin".

**Yeganə Bayramova**

# Gürcüstanda azərbaycandilli məktəblərin başının üstünü qara buludlar alıb

## Ekspertlər həyəcan təbili çalır, Təhsil Nazirliyi isə səssizdir



Gürcüstanda yaşayan soydaşlarımızın təhsil problemi illərdir həll olunmamış qalıb. Bu sahədə pedaqoji kadrların çatışmazlığına dair narahatlıqlar davam edir. Azərbaycandilli məktəblərdə çalışanların 80 faizi təqaüdçü və ya təqaüd yaşına yaxın olan müəllimlərdir. Xüsusən, Azərbaycan dili və ədəbiyyat müəllimləri azlıq təşkil edir.

Azərbaycan dilini tədris edən müəllimlərin sayı az, üstəlik, yaşları da 65-dən yuxarıdır. Bu səbəbdən soydaşlarımız gürcüdilli təhsil müəssisələrinə üz tutmaq məcburiyyətində qalırlar. Əslən Borçalıdan olan tarixçi-alim Kərəm Məmmədov da "Şərq"ə açıqlamasında bildirib ki, Gürcüstanda olan soydaşlarımız üçün BDU-nun Qazax filialında hər il 25 nəfərlik qrup təşkil edilə bilər. Əks təqdirdə dilimiz tamamilə unudulacaq.

**Görəsən, problemin həlli üçün konseptual layihə nəzərdə tutulurmu?**

Mövzu ilə bağlı "Şərq"ə danışan təhsil eksperti Kamran Əsədov bildirib ki, oradakı soydaşlarımıza ödənişsiz təhsil verə bilərik: "Onlar xarici vətəndaş kimi yalnız ödənişli ixtisasları seçə bilirlər, bu da yaxşı hal deyil. Ona görə də soydaşlarımıza Azərbaycan ərazisində pulsuz təhsil almaq imkanı yaratmalıyıq. Həm də Gürcüstan universitetləri nəzdində müəyyən spesifik ixtisaslar üzrə Azərbaycan dilində tədris olmalıdır.

Üçüncü vacib məqam odur ki, Azərbaycan özü müəyyən proqramlar çərçivəsində 1-2 illik müqavilə ilə könüllü o ərazilərdə işləmək üçün müəllimlər göndərə bilər. Bu addımların atılması çox zəruridir".

*K.Əsədov diqqətə çatdırıb ki, əvvəllər Gürcüstanın azərbaycanlılar yaşayan ərazilərində kifayət qədər anadilli məktəblər var idi. Son illər həmin məktəblərin sayı kəskin şəkildə azalıb:* "Bu da dövlət qurumlarına gedərkən, gürcü dilinə ehtiyacın olması ilə bağlıdır. Digər səbəb isə azərbaycanlı kadrların ciddi şəkildə çatışmazlığının müşahidə edilməsidir.

Vaxtilə Gürcüstanın bir neçə universitetində azərbaycandilli fakültələr var idi. Azərbaycandilli məktəblərdə kadr ehtiyacını qarşılamaq üçün tələbələri orada yetişdirirdilər".

Təhsil eksperti sonda əlavə edib ki, təəssüflər olsun, Gürcüstanda bəzi məktəblər qəzalı vəziyyətdədir. Həmin məktəblərin müasir standartlara cavab verə bilməsi üçün Azərbaycan onları öz vəsaiti hesabına təmir edə bilər. Mövzu ilə bağlı Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehova da müraciət etdik. O, sualımızı Təhsil Nazirliyinə sorğu formasında göndərməyimizi bildirdi.

**Aygün Tahirqızı**

# Şəhidin Nilufər balası doğuldu

## Ruhi Əliyeva: "Qoy, Süleyman qardaşımızın gözü arxada qalmasın. Xanımı da, körpə qızı da ən dəyərli əmanətimizdir"



Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının üzvü, xeyriyyəçi, "Liatris Holding"in rəhbəri Ruhi Əliyeva şəhid Süleyman Bağırovun onun şəhadətindən sonra dünyaya gələn övladı Nilufərlə görüntülərini paylaşıb.

O, şəhidin həyat yoldaşının doğum əməliyyatında da iştirak edib. Nilufərə hər zaman dəstək olacağını söyləyib.

**"Şərq" qəzeti xəbər verir ki, R.Əliyeva həmin videoya qeyd də yazıb:** "Deyirlər, Tanrının qədəmi dəyən yerdə yalnız bir çiçək bitərmiş: Nilufər. Bu üzdən həmin çiçək də, onun adı da qutsaldır. Bu əfsanənin doğruluğundan əmin olmasam da, qucağıma aldığım körpə Nilufərin həqiqətən də müqəddəs bir qandan, candan doğulduğunu bilirəm. Çünki o, özünü Vətən üçün fəda edən igidlərimizdən birinin - şəhid Süleyman Bağırovun övladıdır.

Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhadətə qovuşan qardaşımız qızının doğulacağı günü səbirsizliklə gözləyib. İlk övladını qucağına almağı, onu əzizləməyi çox arzulayıb. Təəssüf ki, bu günü görmək ona nəsib olmadı. Süleyman qardaşımız həyatda olmasa da, onun dünyaya gələn körpəsinin, bir gözü gülüb, digəri ağlayan həyat yoldaşının yanında durmağa çalışdıq.

Həm körpə dünyaya gələn an, həm evinə yola salınanda şəhid xanımına "qəlbimizlə, sevgimizlə sizin yanınızdayıq"- demək istədim.

Qoy, Süleyman qardaşımızın gözü arxada qalmasın. Xanımı da, körpə qızı da ən dəyərli əmanətimizdir. Balaca Nilufər atasının əziz xatirəsinə olan sevgimizi daim hiss edəcək".

**Samirə Ərəbova**



**Təbrik edirik!**

Nur üzlü, gözəl qəlbə sahib əziz **Sifayi ANAMIZ.** Nə yaxşı ki, varlığın bizi isidir, gözümüzü güldürür. Ananın nə qədər böyük sərvət olduğunu, hər gün, hər saat hiss edirik, duyuruq. Sənə bu 80 illik yübiley yaşında deyəcəklərimiz o qədər çoxdur ki, sadalsaq bitməz. Doğum gününü təbrik edirik, sənə möhkəm cansağlığı, uzun ömür arzulayırıq. Tanrı qüdrətini, kölgəsini səndən əskik eləməsin. Həmişə yolumuza beləcə nəfəs verəsən, işıq tutasan. 100 yaşayasız, gözəl ANAMIZ!

*Səni sevən doğmaların, əzizlərin.*

*Təbrikə "Şərq" qəzetinin kollektivi də qoşulur.*

# Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çəkilən "Bir topa adam" filmi təqdim edildi




**Dağlıq Qarabağ münaqişəsindən bəhs edən "Bir topa adam" filmi bu günlərdə izləyicilərə təqdim edilib.**

"Qarabağ" silsiləsindən birinci film olan "Bir topa adam" filmində Qarabağ münaqişəsinin başlamasına rəvac verən hadisələr, ermənilərin törətdiyi qətliamlar, eyni zamanda bu müharibə fonunda baş verənlər real faktlarla ekranlaşdırılıb. Vətənpərvərlik mövzusunda çəkilən filmin məqsədi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri və müharibənin faciəvi nəticələrini beynəlxalq ictimaiyyətə çatdırmaqdır. "Planet Parni iz Baku Films" şirkətinin çəkdiyi ekran əsərinin senari müəllifləri Tahir İmanov və Ənvər Mansurov, rejissoru isə Ənvər Mansurovdur. Qeyd edək ki, filmin çəkilməsinə "Nar" da dəstək olub. Tahir İmanovun sözlərinə görə, kino informasiya müharibəsinin ən güclü vasitələrindən biri olduğu üçün Vətən müharibəsinin gərgin dövrlərində Qarabağ münaqişəsi haqqında film çəkmək qərarına gəlirlər: "Həqiqətləri dünyaya çatdırmaq üçün filmlər çox güclü vasitələrdən biridir. Ona görə də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə film çəkməyi planlaşdırırıq. "Bir topa adam" filmində biz müharibənin əslində necə başladığını göstərməyə çalışmışıq. Biz bir ailənin prizmasından müharibənin dəhşətlərini canlandırmışıq. Filmin çəkilişində göstərdiyi dəstəyə görə "Nar"a öz təşəkkürümüzü bildirirk".

# 2020-ci ildə Beynəlxalq İnformatika olimpiadasında uğur qazanan şagirdlərə "Azercell Telekom" tərəfindən hədiyyələr verildi

Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən icra edilən layihə çərçivəsində "Azercell Telekom" MMC-nin dəstəyilə informatika üzrə beynəlxalq olimpiadalara hazırlaşan məktəblilərimiz ötən il ərzində dəfələrlə mötəbər bilik yarışlarına qatılaraq yüksək nəticələr əldə ediblər.



Məktəblilərimiz ölkəmizi uğurla təmsil edərək 1 qızıl, 1 gümüş və 8 bürünc medal olmaqla ümumilikdə 10 medal qazanıblar

2020-ci ilin ilk belə yarışı yanvar ayında Qazaxıstanın Almatı şəhərində keçirilən 16-cı Beynəlxalq Jautıkov Olimpiadası olub. 20 ölkədən 588 şagirdin iştirak etdiyi bu yarışmada informatika fənni üzrə Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdləri Abutalıb Namazov (hal- hazırda təhsilini ABŞ Massaçutes Texnologiyalar İnstitutunda (MIT) davam etdirir) qızıl, Murad Eynizadə (hal- hazırda təhsilini Cənubi Koreyanın Elm və Yüksək Texnologiyalar İnstitutunda (KAIST) davam etdirir) gümüş və Gəncə şəhər 15 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar.

Azərbaycan məktəbliləri ötən ilin avqustunda keçirilən Asiya Pasifik İnformatika Olimpiadasında da 33 ölkədən olan iştirakçılar arasında fərqlənməyi bacarıblar. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Murad Eynizadə və Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin X sinif şagirdi Əziz Hüseynov bu nüfuzlu yarışmada bürünc medal sahibi olublar.

Sentyabr ayında Sinqapurda təşkil olunan və virtual formada keçirilən 32-ci Beynəlxalq İnformatika Olimpiadasında da Azercell-in dəstəklədiyi Azərbaycan komandasının üzvləri yaddaqalan nəticə əldə edərək 3 medal qazanıblar. 350-yə yaxın iştirakçı arasında üç azərbaycanlı şagird - Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin X sinif şagirdi Əziz Hüseynov, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdləri Abutalıb Namazov və Murad Eynizadə bürünc medala layiq görülüblər. Ə.Hüseynov daha sonra Bolqarıstanın Şumen vilayətində informatika fənni üzrə 12-ci Beynəlxalq payız turnirində də uğurlu nəticə nümayiş etdirib. O, 17 ölkədən 403 iştirakçının qatıldığı turnirdə bürünc medal qazanıb. 16-22 dekabr 2020-ci il tarixlərində Moskva şəhərində keçirilən Beynəlxalq Meqapolislər Olimpiadasında Bakı şəhəri 269 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Amin Cəlilov bürünc medal əldə edib.

Qeyd edək ki, informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi 2017-ci ildən etibarən "Azercell Telekom" şirkətinin dəstəyi ilə həyata keçirilir. Mobil operator gənclərin bilik və bacarıqlarının artırılmasına xidmət edən təşəbbüslər çərçivəsində Azərbaycanın müxtəlif bölgələrindən və paytaxt məktəblərindən onlarla şagirdin hazırlıq prosesinə cəlb edilməsinə yardımçı olub. Azərbaycan Respublikasının Təhsil İnstitutu ilə birgə icra edilən layihə çərçivəsində bu günə qədər məktəblilərimiz informatika fənni üzrə 1 qızıl, 6 gümüş və 18 bürünc medal olmaqla ümumilikdə 25 medal qazanıblar.

Bütün bu uğurlar, qazanılan medalların sayının və əyarının yüksəlməsi informatika üzrə istedadlı şagirdlərin aşkar edilməsi və onların dəstəklənməsi üçün təşəbbüslərin real nəticə verdiyini bir daha sübut edir. Xatırladaq ki, 2019-cu ildə ölkəmizdə keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasında Azercell Rəqəmsal Sponsor qismində çıxış edib.

Davamlı inkişafın əsas amili olan təhsil hər bir dövlətin, cəmiyyətin sağlam gələcəyinin etibarlı bünövrəsidir. Məhz buna görə Azercell şirkəti fəaliyyət dövrü ərzində təhsilin və gənclərin inkişafına yönəldilmiş müxtəlif layihələrin təşəbbüskarı və dəstəkçisi qismində çıxış edib, savadlı kadrların yetişdirilməsinə daima dayaq olmağa çalışır.

**Elan**

Məmmədov Emin Murad oğlunun adına verilmiş 040199 saylı sürücülük şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 275



## Sakarya çayının bir qolu qıpqırmızı axır

### Çayın rəngini birdən-birə dəyişməsi əhalidə təşviş yaradıb

**Türkiyənin paytaxtı Ankaradakı çay qırmızı rəngə boyanıb.**

Sakarya çayının bir qolu olan Ankara çayının birdən-birə rəngini dəyişməsi əhalidə təşviş yaradıb. (publika.az) Ətraf Mühit və İnfrastruktur Nazirliyi və Ankara Su və Kanalizasiya İdarəsi sudan nümunə götürərək araşdırmalara başlayıb.

## Koronaya yoluxdu

### Qadının barmaqları qara rəngə döndü



**İtaliyada koronavirusa yoluxan bir qadının barmaqları qara rəngə dönüb.**

Medicina xəbər verir ki, adı bilinməyən 86 yaşlı xəstə virusa yoluxduqdan sonra damarlarında ciddi fəsadlar yaranıb. Barmaqlarını kəsməli olan həkimlər bunun koronovirusun təsirindən olduğunu bildiriblər. Həkimlər qan laxtalanması problemi olan bir çox korona xəstəsində belə halın yaşandığını bildiriblər. "King's College London"dan olan professor Roopen Arya 2020-ci ilin may ayında koronavirus xəstəxanalarda yatan xəstələrin 30 faizində qan laxtalanmasının olduğunu açıqlayıb.

## "Simpsonlar"dan mesaj

### Cizgi film bu dəfə vaksinasiya səhnəsi ilə qalmaqal yaradıb



**Dünyaca məşhur "Simpsonlar" cizgi filmi yenə gündəmə gəlib.**

Türk mediası xəbər verir ki, dünyada baş verən mühüm hadisələrin illər əvvəl əks olunduğu cizgi film bu dəfə vaksinasiya səhnəsi ilə qalmaqal yaradıb. Belə ki, Rusiyada vaksin vurduracaq şəxslərə dondurma hədiyyə edilməsi illər əvvəl "Simpsonlar"da başqa formada əks olunub.

*Qeyd edək ki, Simpsonların koronavirusla bağlı səhnəsi də var.*

## Meqan Markl 2 il davam edən məhkəməni qazandı



**Şahzadə Harrinin həyat yoldaşı Meqan Markl atasına yazdığı məktubu icazəsiz yaydığına görə "The Mail on Sunday" qəzetini məhkəməyə vermişdi.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, iki il davam edən məhkəmə prosessi Marklın xeyrinə qərar qəbul edib. Beləliklə o, nəşrə qarşı açdığı davanı qazanıb. Sözügedən məktubu Meqan 2018-ci ildə evləndikdən 3 ay sonra yazıb. Verilən məlumatlara görə, Markl məktubda atasının mediaya heç bir müsahibə verməməsini istəyib. Çünki o, atasının qalmaqallı müsahibələrindən təngə gəlib.







# Qorxunc qala...

### Burada Osmanlı əsgərlərinə dəhşətli işgəncələr verilirdi





**Rumıniyanın Brasov şəhəri yaxınlığında yerləşən "Bran Castle" dünya miqyasında böyük bir şöhrətə sahibdir. Bu şöhrəti "Bran Castle" Bram Stokerin dəfələrlə ekrana qoyulmuş "Dracula" romanına borcludur.**

15-ci əsrdə bölgədə hökm sürən Vlad Tepeş və ya Kazıklı Voyvoda həm bölgə xalqına, həm də Osmanlı əsgərlərinə dəhşətli bir işgəncə verdiyinə görə böyük bir nüfuza sahib idi. Kazıklı Voyvodanın yaşadığı "Bran" qalası sonralar Rumıniyanın mədəniyyət və turizminin çox vacib bir hissəsinə çevrilib. Üçüncü Vlad hakimiyyətdə olduğu müddətdə həm yerli insanlara, həm də bölgədə yaşayan Osmanlılara böyük işgəncələr verib. Hətta çoxlarını ağlasığmaz qəddarlıqla öldürüb. Üstəlik, bunu etməzdən əvvəl Osmanlı İmperiyası üçün fərqli cəbhələrdə birlikdə savaşıb. Hətta müvəffəqiyyəti o dövrdə Osmanlı İmperatorluğunun paytaxtı Ədirnədə də eşidilib. O özünü guya onlara sadiq kimi göstərib, əslində isə türklərə qarşı gizli düşmənçilik aparıb. Qısa müddətdə uğurlar əldə edən Vlad hakimiyyətini daha da gücləndirmək üçün lordları ölkədən qovmağa başlayıb. Yerli lordları qovduqdan sonra Osmanlıları hədəf alır. Kazıklı Voyvoda adını da məhz bu hadisələr zamanı qazanır. Osmanlı əsgərlərini qayadan atan III Vladın bu dəhşətli əməlləri tezliklə bütün İstanbulda yayılır. Nəhayət, o, 1477-ci ildə 300 nəfərlik əsgəri ilə naməlum şəkildə öldürülür. Onun kəsilmiş başını elə öz silahdaşları İstanbula gətirir və kəllə düz bir neçə ay İstanbulda ümumxalq baxışında saxlanılır. Bu hadisədən illər keçməsinə baxmayaraq hələ də unudulmayıb. İndi onun yaşadığı qala Rumıniyanın məşhur turizm zonalarından biri hesab olunur.

**Aynurə Pənahqızı**

## Yaşı 5-dən aşağı olan 400 min uşaq aclıqdan ölə bilər

### Bu barədə BMT-nin 4 agentliyinin birgə yaydığı hesabatda qeyd olunub



**Təcili humanitar müdaxilə olmasa bu il Yəməndə yaşı 5-dən aşağı olan ən azı 400 min uşaq aclıqdan ölə bilər.**

APA-nın "Reuters"ə istinadən verdiyi xəbərə görə, bu barədə BMT-nin 4 agentliyinin birgə yaydığı hesabatda qeyd olunub. Bildirilib ki, Yəməndə gedən müharibə və qlobal pandemiya fonunda uşaqların qidalanma səviyyəsi kəskin şəkildə aşağı düşüb. Yəməndə yaşı 5-dən aşağı olan kiçik uşaqlar arasında kəskin qida çatışmazlığının 2020-ci ilə nisbətən 22% artımı proqnozlaşdırılıb. Ölkənin Ədən, Hodeidah, Taiz və Səna bölgələri ən çox zərər görənlər arasındadır. Hesabatda qeyd olunub ki, 2021-ci ildə 5 yaşından aşağı 2,3 milyon uşaq kəskin qida çatışmazlığı problemi ilə üzləşəcək. Təxminən 1,2 milyon hamilə və ya ana südü verən qadının da kəskin qida çatışmazlığı problemi ilə üzləşməsi gözlənilir. Agentliklər ölkənin humanitar fəlakətdən çıxması üçün tələb olunan 3,4 milyard dollardan yalnız 1,9 milyard dollarının yığıldığını açıqlayıb.



## Pierr Kardinin sarayı 656 milyona satılır

**Məşhur brend "Pierre Cardin"in sahibinə məxsus ev satışa çıxarılıb.**

13 min kvadrat metr ərazisi olan malikanə 1970-ci ildə inşa edilib. Onun dekorasiyasına macarıstanlı dizayner Antti Lovag imza atıb.

Villa şarlar formasında inşa edildiyindən "Şar sarayı" adlandırılır. Aralıq dənizi sahilində yerləşən bu malikanəni Pierr 1991-ci ildə alıb.

Bir çox böyük məclislərə ev sahibliyi edən mülk bir neçə həyət, hovuzlar, amfiteatr və 10 otaqdan ibarətdir. "Şar sarayı" 280 milyon funt-sterlinqə ( 656 milyon